**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

5 aprel 2024-cü il №10 (9068) www.muallim.edu.az muallim@media.edu.az

## Müəllimlərin yerdəyişməsi

Müsabiqədə dövlət ümumi təhsil müəssisələrində müddətsiz müqavilə əsasında fasiləsiz olaraq 3 tədris ili çalışanlar iştirak edir

## Dövlət Proqramı məzunlarının Qarabağ Universitetinə cəlb olunması gələcək üçün önəmlidir

### Dövlət Proqramı məzunları ilə görüş və karyera sərgisi təşkil olunub



Aprelin 2-də ADA Universitetində Elm və Təhsil Nazirliyi nəzdində Dövlət Proqramı İdarəetmə Qrupu tərəfindən "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın məzunları ilə görüş və ilk Karyera Sərgisi keçirilib.

Karyera sərgisinin keçirilməsində əsas məqsəd təhsillərini uğurla başa vurmuş məzunların tanıdılması, onların məşğulluğunun təmin edilməsi, xaricdə təhsil almış savadlı gənclərin ixtisasyönümlü karyera perspektivlərinin dəstəklənməsi, ölkənin kadr potensialının gücləndirilməsidir.

2022-2026-cı illər üçün Dövlət Proqramı çərçivəsində "Universitetlər üzrə top 10" da təhsil alanların sayı 50 nəfərə yaxındır. Dövlət Proqramı məzunlarının Qarabağ Universitetinə cəlb olunması gələcək üçün önəmlidir.

Bax səh. 3

## "Ağrıdan dözə bilməsəm də döyüş mövqeyini tərk etmədim"

### Fiziki tərbiyə müəllimi Ülvi Qurbanovun müharibə gündəliyi



"Tuğda, sonra Tağlarda döyüşlərə qatıldıq. Tağlarda artıq düşmən geri çəkilirdi. Zəfər yaxınlaşırdı. Postdaydıq. Əlaqəmiz kəsildiyindən nə baş verdiyindən xəbər tuta bilmirdik. Axşam hər tərəfdən atəş səsləri gəlməyə başladı. Elə bilirdik ki, böyük hücum var, bütün istiqamətlərdə döyüşlər gedir. Mövqelərimizdə pusqu qurub düşməni gözləyirdik. Son dəmə, Ermənistan məğlubiyyətini qəbul edib, bizimkilər də havaya atəş açaraq qələbəni qeyd edirlər".

Bax səh. 6

# YÜKSƏK BİLİK, MAKSİMUM NƏTİCƏ

### 14 şagird buraxılış imtahanlarında 300 bal yığıb

Son illər təhsil sahəsində aparılan islahatlar, həyata keçirilən layihələr şagirdlərin buraxılış imtahanlarında, fənn olimpiadalarında, beynəlxalq müsabiqə və yarışlarda uğur qazanmaları ilə nəticələnir.

Bu günlərdə tam (11 illik) orta təhsil səviyyəsi üzrə 3 mart 2024-cü il tarixində keçirilmiş buraxılış imtahanının nəticələri də bunu deməyə əsas verir. Sevindirici haldır ki, imtahan iştirakçıları arasında 14 nəfər 300 bal toplamaqla ən yüksək nəticəni göstərib.

Onu da qeyd edək ki, uğur qazanan şagirdlərdən 5 nəfəri Bakı, digərləri isə region məktəbliləridir. Maksimum nəticə əldə edənlərdən 13 nəfəri qız, 1 nəfəri isə oğlandır.

Fürsətdən istifadə edib imtahanlarda yüksək nəticə əldə etmiş şagirdlərlə söhbətləşdik. Onların təəssüratlarını öyrəndik.

Ardı səh. 4



**Fatimə Məmmədli:** "Buraxılış imtahanından əldə etdiyim maksimal nəticəm qarşıda bizi gözləyən blok imtahanı üçün də motivasiya qaynağım oldu. Blok imtahanında da maksimal nəticə toplamaq, hüquq ixtisası üzrə təhsil almaq və Prezident təqaüdçülərindən biri olmaq istəyirəm. Gələcəkdə hüquq müdafiəçisi kimi tarixin yaddaşında qalmaq ən böyük arzumdur".



**Nərmin Ağazadə:** "Sınaqlarda yüksək nəticə göstərirdim və imtahanda da nəticəmin yaxşı olacağına inanırdım. 4-cü ixtisas qrupu üzrə hazırlaşıram. Azərbaycan Tibb Universitetinə yüksək balla daxil olub bakalavr səviyyəsini başa vurduqdan sonra təhsilimi xaricdə davam etdirmək istəyirəm. Arzum gələcəkdə peşəkar həkim olmaqdır".

# ONLAR DÜNYANIN TOP UNİVERSİTETLƏRİNDƏ OXUYACAQLAR

### "Harvard Universitetindən qəbul aldığım xəbər mənim üçün çox gözlənilməz oldu"

Azərbaycan məktəblilərinin qazandıqları uğurlar ilbəil artmaqdadır. Belə ki, gənclərimizin dünyanın ən nüfuzlu ali təhsil ocaqlarına qəbul olması buna bariz nümunədir. Dünya reytinqində dördlükdə yer alan Harvard Universitetinə "Astrofizika" ixtisası üzrə qəbul olan Qəndab Məmmədovanı, "Kompüter elmləri" ixtisası üzrə Dreksel Universitetində oxuyacaq qardaşı Mehdi Məmmədovu və "Biotibbi mühəndislik" ixtisası üzrə ABŞ-nin Kolumbiya Universitetinin tələbəsi adını qazanan Şəki şəhər Kimya-biologiya təmayüllü liseyin 11-ci sinif şagirdi Dəniz Məmmədzadəni daha yaxından tanıyaq.

Ardı səh. 5



*Dəniz Məmmədzadə:*
"Universitetlərdən qəbul aldığımı billəndə keçirdiyim hissləri sözlərlə təsvir etməkdə çətinlik çəkirəm. Sevinc hissi ilə yanaşı gələcəkdə əldə edilə biləcək imkanların həyəcanını yaşamışdım".



*Qəndab Məmmədova:*
"Harvard Universiteti qəbul etdiyi tələbələrin bütün xərclərini qarşılayır və mənim də bütün xərclərimi öz üzərinə götürüb. Bu da məni ikiqat xoşbəxt edir".

## Stanford Universitetinin orta məktəbinə yüksək göstəricilərlə qəbul olan Azərbaycan məktəblisi

*Raul Səlim:*

### "Arzum gələcəkdə ABŞ-də şəhər meri olmaqdır"

Bakı şəhəri 36 nömrəli tam orta məktəbin 7-ci sinif şagirdi Raul Səlim ABŞ-nin Stanford Universitetinin orta məktəbinə ("Stanford University Online High School") yüksək göstəricilərlə qəbul olub. O, bu məktəbdə onlayn təhsil alacaq.

Raulun uğur hekayəsi müsbət məqamlarla xeyli zəngindir. Belə ki, o, 2023-cü il noyabrın 18-də şahmat üzrə təsnifat turnirində 9 raundun hər birində qalib gələrək, I yerə layiq görülüb. III dərəcə sahibidir.

2022-ci il iyulun 19-23 tarixlərində Frankfurtda keçirilən Beynəlxalq STEM Olimpiadasında Coding və riyaziyyat üzrə bürünc medal qazanıb. 2023-cü il iyulun 18-23 tarixlərində Parisdə keçirilən Beynəlxalq STEM Olimpiadasında Coding üzrə gümüş, riyaziyyat üzrə isə bürünc medallara layiq görülüb.

Ardı səh. 4

# Avropa çempionatında yüksək nəticələr əldə etmiş gənclər və Xarici dillər təmayüllü gimnaziyada təhsil alan şagird-güləşçilərlə görüş





Martın 30-da Azərbaycan Güləş Federasiyasının prezidenti, iqtisadiyyat naziri Mikayıl Cabbarov, gənclər və idman naziri Fərid Qayıbov, elm və təhsil naziri Emin Əmrullayev Rumıniyada keçirilmiş Avropa çempionatında yüksək nəticələr əldə etmiş güləşçilər və məşqçi heyəti ilə görüşüblər.

Mərdəkan qəsəbəsində yerləşən Süleyman Rüstəm adına Xarici dillər təmayüllü gimnaziyada keçirilən görüşdə bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin idmanın inkişafına verdiyi önəm, müxtəlif idman növlərinin tərəqqisi və beynəlxalq arenada uğurlara imza atan milli idmançılarımızın yetişdirilməsi Azərbaycanın idman ölkəsi kimi şöhrətini artırır. Bu sahədə qədim ənənələrə, formalaşmış məktəbə malik güləş xüsusi yer tutur. Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsinin dəstəyi ilə Azərbaycan Güləş Federasiyasının fəaliyyəti bu idman növünün inkişafını daha da stimullaşdırır, populyarlığını və kütləviliyini artırır.

Qeyd edilib ki, güləşçilərimiz bu il də ənənəyə sadiq qalaraq qitə birinciliyində böyük uğurlar qazanıblar. Yunan-Roma güləşi və sərbəst güləş üzrə millilərimiz komanda hesabında ilk üçlükdə yer alıblar. Qadın güləşçilərimiz də son 8 ilin ən yaxşı nəticəsinə imza atıblar. Bundan başqa, Azərbaycan yunan-Roma güləşi tarixində ilk dəfə Avropa çempionatında 3 qızıl medal qazanıb. Rumıniyada keçirilən bu yarışda ümumilikdə 16 medal (5 qızıl, 3 gümüş, 8 bürünc) əldə edilib. Bu nəticə ilə Azərbaycan Avropada 2-ci yeri tutub.

Tədbir iştirakçıları gimnaziyada yaradılmış şəraitlə də tanış olublar. 1960-cı ildən fəaliyyət göstərən gimnaziyanın ərazisindəki məktəb və yataqxana binaları istismara yararsız vəziyyətdə olduğundan sökülüb, yerində 2021-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə yeni bina inşa edilib.

Hazırda Elm və Təhsil Nazirliyi və Azərbaycan Güləş Federasiyasının dəstəyi ilə ölkənin müxtəlif bölgələrindən 50-yə yaxın yeniyetmə güləşçi gimnaziyada təhsil alır. Qida və yataqxana ilə təmin edilən məktəblilər tədrislə yanaşı, bütün zəruri avadanlıqlarla təchiz olunan kompleksin idman zalında sərbəst və yunan-Roma güləşi üzrə təlim-məşq prosesində iştirak edirlər. 5-11-ci siniflərdə təhsil alan güləşçilər bu mühitdə daha yüksək bilik və bacarıqlara yiyələnmək imkanı qazanırlar. Növbəti tədris ilindən gimnaziyaya daha çox güləşçi-şagirdin cəlb edilməsi planlaşdırılır. Bu layihə Azərbaycan güləşinin inkişafında, yeni sağlam nəslin formalaşmasında əhəmiyyətli rol oynayacaq.

Tədbirdə həmçinin bildirilib ki, Avropa çempionatı kimi mötəbər yarışda uğurlu nəticələr sərgiləmiş idmançılarla görüşün gimnaziyada keçirilməsi təsadüfi deyil. Burada təhsil alan yeniyetmələrin peşəkar güləşçilərlə yaxından tanış olması, uğurlarına şahidlik etməsi onlara bu sahədə inkişaf etmək üçün əlavə stimul olacaq.

Xarici dillər təmayüllü gimnaziya 1029 yerlikdir. Yeni binada sinif, laboratoriya, informatika və hərbi hazırlıq otaqları, kitabxana və yeməkxana yaradılıb. Kompleksin həyətində yerləşən 3 mərtəbəli yataqxana korpusu 185 yerlikdir. Burada sinif və yataq otaqları, yeməkxana, akt və qapalı idman zalları fəaliyyət göstərir. Eyni zamanda açıq havada futbol meydançası mövcuddur.

Tədbirin sonunda bu il aprelin 5-dən 7-dək Bakıda ilk dəfə keçiriləcək Avropa Olimpiya Təsnifat Turnirinin yüksək səviyyədə təşkili istiqamətində görülən işlər barədə məlumat verilib və yarışın Azərbaycanı nüfuzlu tədbirlərin mahir təşkilatçısı kimi növbəti dəfə dünyaya tanıtmaq fürsəti olduğu diqqətə çatdırılıb. Görüş iştirakçıları, həmçinin turnirdə çıxış edəcək güləşçilərə uğurlar arzulayıblar.

# BDU-nun Elmi Şurasının iclası keçirilib

## Elm və təhsil naziri iclasda iştirak edib





Elm və Təhsil Nazirliyi rəhbərliyinin iştirakı ilə Bakı Dövlət Universitetinin (BDU) Elmi Şurasının iclası keçirilib.

İclasdan əvvəl nazir universitetin yeni təmir olunmuş 2 nömrəli tədris binası ilə tanış olub. Burada Ulu Öndər Heydər Əliyevin büstünün və şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzülüb, onların əziz xatirəsi ehtiramla yad edilib.

Sonra BDU-nun Heydər Əliyev lektoriyasında Elmi Şuranın iclası keçirilib.

İclasda nazir Qarabağda qazandığımız böyük zəfərdən sonra ölkəmizin inkişafının yeni mərhələyə keçdiyini, təhsil və elm sahəsi üzrə də yeni çağırışların olduğunu diqqətə çatdırıb.

Emin Əmrullayev ölkənin ən böyük və qədim ali təhsil müəssisəsi kimi BDU-nun qarşısında dayanan yeni hədəflərin 3 əsas istiqaməti əhatə etməli olduğunu bildirib: “Bunlardan birincisi peşəkar kadr hazırlığıdır. BDU-nun tədqiqat potensialının daha da artırılmasını ikinci hədəf kimi götürmək olar. Milli ideoloji dəyərlərin inkişaf etdirilməsi də əsas hədəflər sırasındadır. Bu üç istiqamət arasında balans yaratmaq və hər birini inkişaf etdirmək çox vacibdir”.

Sonra nazir BDU-nun dünya reytinqlərində mövqeyinin daha da yaxşılaşdırılması, beynəlxalq əlaqələrinin inkişafı ilə bağlı tövsiyələrini verib və universitet kollektivinə uğurlar arzulayıb.

BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, nazirin çıxışı BDU-nun inkişafının strateji istiqamətlərini müəyyənləşdirməyə kömək edəcək. Eyni zamanda universitetin elmi və tədris potensialı qarşıda duran hədəflərə çatmağa imkan verəcək.

# Elm və təhsil naziri Samuxda vətəndaşları qəbul edəcək




Elm və təhsil naziri Emin Əmrullayev 19 aprel tarixində Samux rayonunda vətəndaşları qəbul edəcək. Qəbulda Samux, Gəncə, Naftalan, Göygöl, Daşkəsən, Goranboy və Kəlbəcər sakinləri iştirak edə bilərlər.

Adları çəkilən şəhər və rayonların sakinləri 15 aprel (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 2 və 146 — 6 nömrəli telefonlarına (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının *https://edu.gov.az/az/contact_us* bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə *“WhatsApp”* vasitəsilə müraciət göndərmək mümkündür.

# Müəllimlər yerdəyişmə edir

## Digər bölgələrdən Bakı, Sumqayıt şəhəri və Abşeron rayonu üzrə yerdəyişmə etmək mümkün olmayacaq

Aprelin 2-dən dövlət ümumi təhsil müəssisələrində fəaliyyət göstərən müəllimlərin iş yerinin dəyişdirilməsi müsabiqəsi üzrə elektron ərizələrin qəbuluna başlanılıb. Ayın 8-dək davam edəcək prosesdə müsabiqədə iştirak etmək istəyən müəllimlər *www.miq.edu.az/yerdeyishme* linkinə daxil olaraq müraciət edə bilərlər. Xatırladaq ki, müəllimlərin iş yerinin dəyişdirilməsini Elm və Təhsil Nazirliyi mərkəzləşdirilmiş qaydada, proqram təminatı vasitəsilə həyata keçirir.

**Kimlər müsabiqəyə qatıla bilər?**

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi İnsan Resursları Mərkəzinin şöbə müdiri Muxtar Hacıyev “Azərbaycan müəllimi” qəzetinə müsahibəsində bildirib ki, müəllimlərin iş yerinin dəyişdirilməsi müsabiqəsində dövlət ümumi təhsil müəssisələrində müddətsiz müqavilə əsasında fasiləsiz olaraq 3 tədris ili çalışanlar iştirak edir. İştirakçıların təhsilverənlərin sertifikatlaşdırılması (test və müsahibə mərhələsindən uğur qazananlar), müəllimlərin işə qəbulu və ya diaqnostik qiymətləndirmə imtahanı nəticəsinin olmağı əsas şərtdir.

M.Hacıyevin sözlərinə görə, müsabiqə üzrə minimum keçid balı 30 bal müəyyənləşdirilib.

**Sosial amillər nəzərə alınır?**

M.Hacıyev təsdiq edib ki, bəzi sosial amillərlə əlaqədar namizədlərin topladıqları bal artım əmsalı ilə hesablanır: “Məsələn, əri və ya arvadı hərbiçi və ya özü şəhid ailəsinin üzvü olan namizədlərin topladıqları bal 1.1 (bir tam onda bir) artım əmsalına vurularaq hesablanır. İş yerini özünün faktiki yaşayış yeri və ya qeydiyyatda olduğu ərazidə yerləşən həvəsləndirmə tədbirləri tətbiq edilən müəssisəyə dəyişdirənlər üçün də üstünlük var. Həmin namizədlərin topladıqları bal 1.05 (bir tam yüzdə beş) artım əmsalına vurulur. Həvəsləndirmə tədbirlərinin tətbiq edildiyi müəssisələrdə 3-5 il ərzində fasiləsiz olaraq işləyən müəllimlərin imtahan nəticəsi 1.05 artım əmsalına vurularaq hesablanır. 5 il və daha artıq müddətdə fasiləsiz işləyən müəllimlərin imtahan nəticəsi isə 1.1 artım əmsalına vurulur”.

**Müəllim iki ümumi təhsil müəssisəsində çalışırsa...**

Müəllim iki ümumi təhsil müəssisəsində çalışırsa, müsabiqədə yalnız müddətsiz müqavilə əsasında çalışdığı əsas iş yeri üzrə yerdəyişmə etmək hüququna malikdir. Analıq məzuniyyətində olan şəxslər müsabiqədə iştirak edə bilmir.

M.Hacıyevin sözlərinə görə, bölgələrdən yerdəyişmədə bəzi məhdudiyyətlər də var: “Digər bölgələrdən Bakı, Sumqayıt şəhəri və Abşeron rayonu üzrə yerdəyişmə etmək mümkün olmayacaq. Müsabiqə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla həyata keçiriləcək. İş yerini bu regionlara dəyişmək istəyən şəxslər müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak edərək yerdəyişmə edə bilərlər”.

**Ruhiyyə DAŞSALAHLI**

**Müəllimlərin iş yerinin dəyişdirilməsi müsabiqəsində dövlət ümumi təhsil müəssisələrində müddətsiz müqavilə əsasında fasiləsiz olaraq 3 tədris ili çalışanlar iştirak edir**

**İştirakçıların təhsilverənlərin sertifikatlaşdırılması (test və müsahibə mərhələsindən uğur qazananlar), müəllimlərin işə qəbulu və ya diaqnostik qiymətləndirmə imtahanı nəticəsinin olmağı əsas şərtdir**

**Əri və ya arvadı hərbiçi və ya özü şəhid ailəsinin üzvü olan namizədlərin topladıqları bal 1.1 (bir tam onda bir) artım əmsalına vurularaq hesablanır**

**Müəllim iki ümumi təhsil müəssisəsində çalışırsa, müsabiqədə yalnız müddətsiz müqavilə əsasında çalışdığı əsas iş yeri üzrə yerdəyişmə etmək hüququna malikdir**

# Nazir müavini Füzuli rayonunda olub

## İdris İsayev təhsil işçiləri ilə görüşüb, vətəndaşları qəbul edib, bir sıra təhsil müəssisələrinə baxış keçirib





Martın 29-da elm və təhsil nazirinin müavini İdris İsayev Füzuli rayonuna səfər edib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Sonra ümumi və məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri, qabaqcıl təhsil işçiləri və 30 ildən çox pedaqoji təcrübəsi olan müəllimlərlə görüş keçirilib.

İdris İsayev görüşdə həyata keçirilən təhsil islahatlarının davam etdirilməsi, həmçinin ümumi təhsilin məqsədyönlü inkişafını nəzərdə tutan yeniliklər barədə danışıb. Nazir müavini təhsil sistemində tədrislə yanaşı, əsas diqqətin təlim-tərbiyə məsələlərinə, müəllim-şagird münasibətlərinə yönəldiyini qeyd edib.

Sonra təhsil işçilərinin fikirləri dinlənilib və onları maraqlandıran suallar cavablandırılıb.

Daha sonra nazir müavini vətəndaşları qəbul edib.

Nazir müavini İdris İsayev qəbula yazılmış vətəndaşları dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verib.

***

Martın 29-da elm və təhsil nazirinin müavini İdris İsayev Füzuli rayonuna səfəri çərçivəsində Böyük Bəhmənli kənd 1 nömrəli tam orta məktəbdə olub.

Məktəbdəki mövcud şərait, eləcə də peşə təmayüllü siniflərin fəaliyyəti ilə tanış olan İdris İsayev pedaqoji kollektiv və şagirdlərlə görüşərək fikir mübadiləsi aparıb.

Nazir müavini Füzuli rayonu Əhmədbəyli kənd körpələr evi — uşaq bağçasının yeni bərpa olunmuş binasına baxış keçirib, kollektivlə görüşüb.

Səfərin sonunda İdris İsayev Füzuli rayonu Aşağı Alıxanlı kənd tam orta məktəbinin tikilməkdə olan yeni binasının tamamlanma işləri ilə də tanış olub.

# Dövlət Proqramı məzunlarının Qarabağ Universitetinə cəlb olunması gələcək üçün önəmlidir

## Dövlət Proqramı məzunları ilə görüş və karyera sərgisi təşkil olunub



Aprelin 2-də ADA Universitetində Elm və Təhsil Nazirliyi nəzdində Dövlət Proqramı İdarəetmə Qrupu tərəfindən "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın məzunları ilə görüş və ilk Karyera Sərgisi keçirilib.

Tədbirdə elm və təhsil nazirinin müavini Həsən Həsənli, Dövlət Proqramı (DP) məzunları, müxtəlif dövlət və özəl sektorların nümayəndələri və digər şəxslər iştirak ediblər. Karyera sərgisinin keçirilməsində əsas məqsəd təhsillərini uğurla başa vurmuş məzunların tanıdılması, onların məşğulluğunun təmin edilməsi, xaricdə təhsil almış savadlı gənclərin ixtisasyönümlü karyera perspektivlərinin dəstəklənməsi, ölkənin kadr potensialının gücləndirilməsidir.

Tədbirin birinci hissəsini açıq elan edən elm və təhsil nazirinin müavini Həsən Həsənli Dövlət Proqramının əhəmiyyətindən söz açıb. Bildirilib ki, Dövlət Proqramı məzunlarının qarşısında duran əsas vəzifələrdən biri də Azərbaycan iqtisadiyyatının inkişafına töhfə verməkdir. Nazir müavini onu da qeyd edib ki, 2022-2026-cı illər üçün Dövlət Proqramı çərçivəsində "Universitetlər üzrə top 10" da təhsil alanların sayı 50 nəfərə yaxındır. Dövlət Proqramı məzunlarının Qarabağ Universitetinə cəlb olunması gələcək üçün önəmlidir. Nazir müavini çıxışının sonunda məzunlara gələcək karyeralarında uğurlar arzulayıb.

Daha sonra tədbir Dövlət Neft Fondunun icraçı direktorunun müavini Rövşən Cavadovun, ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin nitqləri və Dövlət Proqramı İdarəetmə Qrupunun rəhbəri Turan Topalovanın hesabat çıxışı ilə davam edib. Həmçinin tədbirdə məzunlar üçün "Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiya) qaydaları", "Dövlət Proqramı məzunlarının Dövlət Qulluğuna müraciət etmək qaydaları" və "Müasir dövrün dəyişən əmək bazarında xaricdə təhsilin rolu", "Əmək bazarına çıxış üçün nə tələb olunur" mövzularında maarifləndirici çıxışlar edilib.

Tədbirin ikinci hissəsində Dövlət Proqramı məzunları üçün ölkənin 30-a yaxın nüfuzlu dövlət və özəl sektorlarını təmsil edən qurumların iştirak etdiyi karyera sərgisi təşkil olunub. Sərgidə məzunlarla müxtəlif qurumlar tərəfindən vakansiyalar paylaşılıb.

Biz də fürsətdən istifadə edib Dövlət Proqramının məzunları və karyera sərgisində iştirak edən qurumların nümayəndələrinin sərgi ilə bağlı təəssüratlarını öyrəndik.

### "TİF-in vakansiyaları maraqla qarşılanıb"

Sərgidə iştirak edən Təhsilin İnkişafı Fondunun nümayəndəsi Nərgiz Qədirova DP məzunlarının sərgiyə çox böyük maraq göstərdiklərini deyir: "Sərgidə iştirak etməkdə əsas məqsədimiz məzunlara fondun fəaliyyəti haqqında məlumat vermək, hazırda mövcud olan iki vakansiya haqqında onları maraqlandıran sualları cavablandırmaq, onları fonda cəlb etməkdir. Sərgi başlayandan vakansiyalarımız maraqla qarşılanıb. Bir neçə məzun artıq bizə yaxınlaşıb, suallarını ünvanlayıb. Hazırda aktiv olan proqramlara, müsabiqələrə qoşulmaq istədiklərini bildiriblər".

### "Sərgidə istər dövlət qurumlarının, istərsə də özəl sektorların təkliflərini dinlədik"

Məhəmmədəli Qorçubəyli Dövlət Proqramı çərçivəsində İngiltərədə təhsil alıb. O, tədbirin və karyera sərgisinin yüksək səviyyədə təşkil olunduğunu deyir: "Dövlətimizin biz gənclər üçün yaratdığı şəraiti çox yüksək qiymətləndirirəm. Sərgidə istər dövlət qurumlarının, istərsə də özəl sektorların təkliflərini dinlədik. Artıq bir neçə quruma öz CV-mi də göndərdim. Belə sərgilərin keçirilməsi biz gənclərə əlavə stimul verir. Bundan başqa DP məzunlarının bir araya gəlməsini də çox əhəmiyyətli hesab edirəm".

DP çərçivəsində Qlazqo Universitetində təhsil alan Nərgiz Məmmədova ixtisasının beynəlxalq və müqayisəli təhsil olduğunu söyləyir. O, tədbirin hər iki hissəsinin faydalı keçdiyini, spikerlərin çıxışlarının çox yaxşı olduğunu deyir: "Sərgidə məni ən çox maraqlandıran öz ixtisasıma uyğun-yəni təhsillə bağlı təklifləri dəyərləndirmək idi. Çünki mən təhsil sahəsində iş axtarıram. Arzu edərdim ki, gələcəkdə təşkil olunan sərgilərdə təhsillə bağlı daha çox stendlər olsun. Tədbirin təşkilatçılarına xüsusi təşəkkürümü bildirirəm".

### "Sərgidə iştirak etməkdə məqsədimiz bilikli və bacarıqlı gəncləri təmsil etdiyimiz quruma cəlb etməkdir"

Dövlət Əmək Müfəttişliyinin əməkdaşı Yusif Səfərovda məzunların sərgiyə böyük maraq göstərdiyini bildirib: "Sərgidə iştirak etməkdə məqsədimiz bilikli və bacarıqlı gəncləri təmsil etdiyimiz quruma cəlb etməkdir. Sərgi iştirakçılarına öz vakansiyalarımızı təqdim edirik. Bundan başqa, məzunlara qəbul qaydaları haqqında da ətraflı məlumat veririk. Vakansiyalarımız böyük maraqla qarşılanır. Düşünürəm ki, təqdim etdiyimiz vakansiyalardan məzunlar yararlanacaq".

**Niyazi RƏHİMOV**



Vüqar Qurbanov



Leyla Mirzəyeva



Aytən Bayramova



Nərmin Əliyeva



Çingiz Məmmədov

# "Gələcək iş, gələcəyi dəyiş"

## "IT HUB Azerbaijan" layihəsinə yekun vurulub

Aprelin 2-də Bakı Ali Neft Məktəbində (BANM) İqtisadiyyat Nazirliyinin tabeliyindəki IV Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), BANM və "StrategEast" şirkətinin birgə təşkilatçılığı ilə icra olunan "IT HUB Azerbaijan" layihəsinin bağlanış mərasimi keçirilib.

Bağlanış mərasimində BANM-in rektoru Elmar Qasımov, 4SİM-in icraçı direktoru Fariz Cəfərov, Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri Tahir Mirkişili, Avropa Yenidənqurma və İnkişaf Bankının Bakı ofisinin rəhbəri Natali Muravidze, "StrategEast" müəssisəsinin təsisçisi və prezidenti Anatoli Motkin və "EPAM Systems" təlim şirkətinin nümayəndəsi Aleksander Yazepçik iştirak ediblər.

Tədbirdə çıxış edən BANM-in rektoru Elmar Qasımov yüksək səviyyədə icra olunan "IT Hub Azerbaijan" layihəsinin İKT sahəsində bacarıqlı kadrların hazırlanması işinə mühüm töhfə verdiyini qeyd edib. E.Qasımov həyata keçirilən bu cür layihə və təlimlərin, sərgilərin əməkdaşlıq münasibətlərinin dərinləşməsində, informasiya texnologiyaları sahəsində bilik və bacarıqların artırılmasında, yeni iş yerləri və karyera imkanlarının yaradılması prosesində əhəmiyyətli rol oynadığını vurğulayıb.

Sonra 4SİM-in icraçı direktoru Fariz Cəfərov çıxış edərək layihə çərçivəsində ötən 11 ay ərzində Bakı, Gəncə, Sumqayıt, Lənkəran, Mingəçevir, Şirvan və Naxçıvan Muxtar Respublikasından 19-30 yaş aralığında 100-ə yaxın gəncin ödənişsiz İT təlimlərinə cəlb edildiyini, "EPAM Systems" şirkətinin beynəlxalq ekspertləri tərəfindən gənclərə kompüter elmləri, proqramlaşdırma, biznesin təhlili və digər mövzularda onlayn dərslərin keçildiyini, proqramı uğurla bitirən gənclərin ölkəmizdə yerli və xarici şirkətlərdə işlə təmin edilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri Tahir Mirkişili çıxışı zamanı Azərbaycanda İT sahəsinin qarşısında çox ciddi inkişaf perspektivlərinin durduğunu söyləyərək ötən il Prezident İlham Əliyevin təşəbbüsü ilə bu sahənin tamamilə vergidən azad edildiyini diqqətə çatdırıb. Təhsil sektorunda, universitetlərdə İT mütəxəssislərinə yeni iş yerləri və karyera imkanlarının yaradılması baxımından bu cür tədbirlərin əhəmiyyətini yüksək qiymətləndirilib.

Tədbir çərçivəsində "İT HUB Azərbaycan" layihəsinin məzunları və Bakı Ali Neft Məktəbinin bir qrup tələbəsi üçün "Peşəkar brendinq", "CV hazırlanması" və "İş müsahibəsinə hazırlıq" mövzularında təlim sessiyaları keçirilib.

Sessiyalar bitdikdən sonra iştirakçılar BANM-da təşkil olunmuş karyera sərgisinə qatılıblar. "İT HUB Azərbaycan - Gələcək iş, gələcəyi dəyiş!" adlı sərgidə SOCAR, JOCAP, KPMG, EY, Deloitte, Mərkəzi Bank, İnnovasiyalar Agentliyi, Paşa Bank, ABB, Azericard, Ultra, AzİnTelekom, Smart Solutions, Azfen, Azerconnect, Access Bank, Express Bank, Yelo Bank, İctimai TV və s. aparıcı yerli və xarici şirkətlər və dövlət qurumları daxil olmaqla ümumilikdə 60-a yaxın təşkilat iştirak edib.

Əmək yarmarkasında texnologiya, maliyyə, sənaye, rəqəmsal ticarət, proqramlaşdırma, enerji, kibertəhlükəsizlik, media və habelə onlarla digər sahədə İKT üzrə vakant iş yerləri, təcrübə proqramları və karyera imkanları barədə sonuncu kurs tələbələri və məzunlara məlumat verilib.

Sərgiyə BANM ilə yanaşı Bakı Dövlət Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Texniki Universiteti, ADA Universiteti, Xəzər Universiteti və Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələri və məzunları, ümumilikdə 1000 nəfərə yaxın gənc qatılıb.

Yarmarkada iştirakçılara 500-ə yaxın iş yeri və müxtəlif təcrübə proqramları təklif olunub.

### Tələbə və məzunların əmək yarmarkası haqqında təəssüratları

*Vüqar Qurbanov, Bakı Ali Neft Məktəbinin "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" ixtisası üzrə 4-cü kurs tələbəsi:* "Mənim fikrimcə, bu sərgi gənclər üçün yaradılmış böyük bir imkandır. Hazırda İT sahəsi üzrə iş axtaran gənclər çoxdur və belə sərginin yaradılması, tələbə və məzunların yeni vakansiyalarla, iş imkanları ilə tanış olması gənclər adına çox böyük töhfədir. Mən də öz növbəmdə bir neçə yeni vakansiyalarla tanış olmuşam və uğurlu nəticələnəcəyini gözləyirəm".

*Leyla Mirzəyeva, ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kollecinin "Kibertəhlükəsizlik" ixtisası üzrə 4-cü kurs tələbəsi:* "Mən burada bir neçə vakansiya və iş təcrübələri ilə maraqlandım və onlarla əlaqə saxlamaq fikrindəyəm. Fikrimcə, əmək yarmarkası çox maraqlı təşkil edilib, burada keçirdiyim vaxtı çox faydalı dəyərləndirirəm, eyni zamanda çoxlu sayda hədiyyə verdilər. Təşkilatçılara dərin təşəkkürümü bildirirəm".

*Aytən Bayramova, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər" ixtisası üzrə məzunu, "Buta Group" şirkətinin əməkdaşı:* "Bugünkü əmək yarmarkası iştirak etdiyim ən yüksək səviyyədə təşkil olunan sərgidir. Əvvəllər mən öz ixtisasıma uyğun vakansiyalar tapa bilmirdim. Hazırda isə bütün şirkətlər üzrə İT və öz sahəm üzrə aktiv vakansiyalara müraciət etdim və çox gözəl qarşılandım".

*Nərmin Əliyeva, Bakı Dövlət Universitetinin "Riyaziyyat müəllimliyi" ixtisası üzrə məzunu:* "Mən hazırda ixtisasdəyişmə dövründəyəm. Riyaziyyat müəllimliyindən proqramlaşdırma sahəsinə keçmişəm və aktiv olaraq iş axtarıram. Bu istiqamətdə iki aylıq təcrübə proqramında iştirak etmişəm. Sərgidə iştirak edənlərin hamısı ölkənin aparıcı bankları, şirkətləridir. Ümid edirəm, gənclərin çoxu xoş xəbər alar. Mən də artıq şirkətlərin bir neçəsinə CV vermişəm, bəzilərinə elektron formada müraciət etmişəm. Özümə uyğun bildiyim şirkətlərin hamısı ilə əlaqə saxlamışam".

*Çingiz Məmmədov, Bakı Ali Neft Məktəbinin "Biznesin idarəedilməsi" ixtisası üzrə 2-ci kurs tələbəsi:* "Mən bugünkü karyera sərgisində iştirakımın çox faydalı olduğunu düşünürəm. Bir neçə şirkətlərlə əlaqə saxlamaq imkanım oldu. Ümid edirəm ki, burada öz ixtisasımla bağlı təcrübə proqramı tapacağam və şirkətlərdən müsbət geri dönüş alacağam".

**Lamiyə ƏLİMƏRDANOVA**

# Təcrübi bilik və bacarıqlar qazandırır, kadr ehtiyatı bazası formalaşdırır

## “Maarifçi” tələbə-məzun təcrübə proqramının iştirakçıları ilə görüş keçirilib





Elm və Təhsil Nazirliyi və Təhsilin İnkişafı Fondunun təşəbbüsü ilə icra olunan “Maarifçi” tələbə-məzun təcrübə proqramının iştirakçıları ilə görüş keçirilib.

Görüşdə çıxış edən Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli bildirib ki, bu proqram tələbə və məzunlara təhsil sahəsi üzrə təcrübi bilik və bacarıqlar qazandırmaqla yanaşı, nazirliyin müxtəlif strukturları üçün kadr ehtiyatı bazasının formalaşdırılması baxımından da əhəmiyyətlidir. Mətin Kərimli əlavə edib ki, proqram müddətində iştirakçılar nazirliyin müvafiq bölmələrində təcrübə keçəcəklər, həmçinin müxtəlif təlimlərə cəlb olunacaqlar.

Mətin Kərimli proqrama seçilən iştirakçıları təbrik edib, onlara uğurlar arzulayıb.

Qeyd edək ki, “Maarifçi” tələbə-məzun təcrübə proqramına qoşulmaqla bağlı müraciət etmiş 1958 nəfərdən 690-nın test imtahanında iştirakı müvafiq hesab olunub. Onlardan uğurlu nəticə əldə edən 105 nəfər müsahibə mərhələsinə dəvət olunub və 28 namizəd proqramda iştirak hüququ qazanıb.

Proqram ərzində 13 nəfər Elm və Təhsil Nazirliyi, 2 nəfər Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi, 6 nəfər Peşə Təhsili üzrə Dövlət Agentliyi və 7 nəfər Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin müvafiq struktur bölmələrində təcrübə keçəcəklər.

Proqramda ali təhsilin bakalavriat səviyyəsi üzrə müvafiq ixtisaslarda təhsil alan III və IV kurs tələbələri, magistratura səviyyəsində təhsil alan tələbələr, eləcə də son 3 il ərzində məzun olmuş şəxslər iştirak ediblər.

Elm və Təhsil Nazirliyi və qurumlarında təcrübə imkanları yaradan “Maarifçi” proqramının məqsədi elm və təhsil sahəsində insan resurslarının formalaşdırılması, praktiki fəaliyyətlə tələbə və məzunların sahəvi bilik, bacarıqlarının artırılması, onların təhsil sahəsində müasir yanaşmaları öyrənmələri, həmçinin təhsil islahatlarının həyata keçirilməsi prosesinə dəstək olmaqdır.

Proqram 3 ay müddətində davam edəcək. Sonda iştirakçılara sertifikat təqdim olunacaq.

# “Qərbi Azərbaycana qayıdış”

## Məktəblilər arasında olimpiada təşkil olunacaq






Aprelin 4-də Elm və Təhsil Nazirliyində Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvləri ilə görüş keçirilib.

Görüşdə məktəblilər arasında “Qərbi Azərbaycana qayıdış” mövzusuna həsr olunmuş olimpiadanın təşkilinə dair fikir mübadiləsi aparılıb.

Görüşdə Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli, millət vəkili, Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri Məlahət İbrahimqızı, Naxçıvan Muxtar Respublikasının təhsil nazirinin müavini, nazir səlahiyyətlərini müvəqqəti icra edən Elxan Nəcəfov, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Elm və Təhsil Nazirliyinin Məktəbəqədər və ümumi təhsil siyasəti şöbəsinin müdiri Vəfa Yaqublu, İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Səbuhi Rzayev, Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü İbrahim Bayramov iştirak ediblər.

Bildirilib ki, olimpiadanın təşkilində məqsəd ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər arasında Qərbi Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, ədəbiyyatı, görkəmli ictimai xadimləri, tarixi şəxsiyyətləri, toponimləri, folkloru haqqında maarifləndirmə işlərini aparmaq və biliklərin dərindən öyrənilməsini təmin etməkdir.

Ölkənin ümumi təhsil müəssisələrinin IX və X sinif şagirdlərinin iştirak edəcəyi olimpiada 3 mərhələli olacaq. Final mərhələsi iyun ayında Naxçıvan Muxtar Respublikasında keçiriləcək “Qərbi Azərbaycana qayıdış” festivalı çərçivəsində təşkil ediləcək.

Qeyd edək ki, olimpiadanın tərəfdaşları qismində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Təhsil İnstitutu, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcması çıxış edəcək. Sözügedən olimpiada ötən ilin noyabr ayında Naxçıvanda təşkil olunmuş “Qərbi Azərbaycana qayıdış” festivalı və “Qərbi Azərbaycana qayıdışa gedən yol” konqresi çərçivəsində müzakirə edilən təkliflərin reallaşdırılmasının davamı kimi həyata keçiriləcək.

# YÜKSƏK BİLİK, MAKSİMUM NƏTİCƏ

## 14 şagird buraxılış imtahanlarında 300 bal yığıb

### “Prezident təqaüdçülərindən biri olmaq istəyirəm”

Əvvəli səh. 1

Bakıdakı 118 nömrəli tam orta məktəbin şagirdi Fatimə Məmmədli maksimum nəticə əldə etdiyi üçün qürur hissi keçirdiyini deyir. O imtahana hazırlıq prosesi, gələcək planları haqqında danışıb: “İmtahana hazırlıq mərhələsi hər bir abituriyent üçün olduqca məsuliyyətlidir. Bəzən abituriyentlər yüksək nəticə əldə etməyin sirrini çox çalışmaqda görürlər. Lakin çox çalışmaq əsas nailiyyət faktoru deyil. Müəyyən etdiyimiz mövzu üzərində çalışarkən effektivliyə diqqət yetirməliyik və keyfiyyət amilinə əsaslanmalıyıq. Həmçinin abituriyent olduğumuz dövr yaşımız etibarilə həyatımızın ən önəmli çağlarından biridir. Bu səbəbdən yalnız dərslərimizə fokuslanaraq sosial həyatdan təcrid olunmamalıyıq. Vaxtımızı düzgün bölməyi bacarmalıyıq və sosial həyatımıza da vaxt ayırmalıyıq. Vaxtı necə böləcəyimizi isə yalnız özümüz müəyyən edə bilərik, başqalarının dərs proqramlarına əsaslanmaq o qədər də effektiv deyil. Mən bu prinsiplər əsasında imtahanlarıma hazırlaşmışam və istədiyim nəticələri əldə etmişəm. Buraxılış imtahanından əldə etdiyim maksimal nəticəm qarşıda bizi gözləyən blok imtahanı üçün də motivasiya qaynağım oldu. Blok imtahanında da maksimal nəticə toplamaq, hüquq ixtisası üzrə təhsil almaq və Prezident təqaüdçülərindən biri olmaq istəyirəm. Gələcəkdə hüquq müdafiəçisi kimi tarixin yaddaşında qalmaq ən böyük arzumdur”.

### “İmtahandan 300 bal toplamağım məni çox sevindirdi”

Nərmin Ağazadə paytaxtda yerləşən 299 nömrəli məktəb-liseyin 11-ci sinfində təhsil alır. O, uğur əldə etdiyi üçün valideynlərinə və müəllimlərinə borclu olduğunu deyir: “İmtahandan 290 baldan yuxarı nəticə gözləyirdim, 300 bal olması məni çox sevindirdi. Bu nəticəni əldə etməyimdə əsas səbəb dərslərimə məsuliyyətli yanaşmağım, sistemli və düzgün çalışmağımdır. Qarşıma məqsəd qoyub, məqsədimə nail olmaq üçün çalışmağım uğur qazanmağımda əsas amildir. İmtahana hazırlaşarkən həm də sınaqlarda iştirak edirdim. Sınaqlarda yüksək nəticə göstərirdim və imtahanda da nəticəmin yaxşı olacağına inanırdım. 4-cü ixtisas qrupu üzrə hazırlaşıram. Azərbaycan Tibb Universitetinə yüksək balla daxil olub bakalavr səviyyəsini başa vurduqdan sonra təhsilimi xaricdə davam etdirmək istəyirəm. Arzum gələcəkdə peşəkar həkim olmaqdır”.

**Niyazi RƏHİMOV**

# Stanford Universitetinin orta məktəbinə yüksək göstəricilərlə qəbul olan Azərbaycan məktəblisi

Əvvəli səh. 1

Raul “Evrotenis”in və Çernoqoriyada tədris olunan “Liderlər Məktəbi”nin üzvüdür. Eyni zamanda Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbində təhsil alır.

Bundan əlavə, Raul IDEA-nın “Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq” İctimai Birliyinin üzvü və konsuludur. İngilis və rus dillərini mükəmməl bilir. Hazırda, Çin və fransız dillərini də öyrənir.

Raul maraq dairəsini, hədəflərini “Azərbaycan müəllimi”nə danışıb: “Ən çox sevdiyim fənn riyaziyyat və coğrafiyadır. Dərsdənkənar tennislə, şahmatla və üzgüçülüklə də məşğul oluram. Stanford məktəbinə bank sisteminə aid özünəməxsus bir layihə və esse vermişdim. Çünki bank və maliyyə sistemini yaxşı bilirəm. Qazandığım uğurlara aid xeyli sayda sertifikatlar almışam. ABŞ-də məktəbə daxil olmaqla hədəfim şəhər meri olmaq və ya yüksək bir vəzifədə çalışıb, Azərbaycanımı - Vətənimi təmsil etməkdir. Uğurlarımda ailəmin, müəllimlərimin rolu böyük olub. Çalışacağam ki, arzumlarım, hədəflərim həyata keçsin”.



Raulun oxuduğu məktəbin direktoru Gülnarə Cəfərova da fikirlərini bizimlə bölüşüb: “Raul Səlimlə 3 il əvvəl ilk tanışlığımızda onun istedadlı şagird olduğunu gördüm. Məktəbdə istedadlı şagird kimi ona xüsusi yanaşılır. Bilirik ki, gözəl gələcəyi var”.

**Şakir CƏFƏROV**

# Uğur hekayələri

# ONLAR DÜNYANIN TOP UNİVERSİTETLƏRİNDƏ OXUYACAQLAR

## "Harvard Universitetindən qəbul aldığım xəbər mənim üçün çox gözlənilməz oldu"



Qəndab Məmmədova Şaiq qızı 2005-ci il aprelin 2-də Bakı şəhərində anadan olub. 2012-ci ildə Bakıdakı 279 nömrəli tam orta məktəbin birinci sinfinə gedən Qəndab ibtidai siniflərdən başlayaraq riyaziyyat fənninə, astronomiya və kosmik sahəyə xüsusi maraq göstərib. Uğur qazanmağında oxuduğu təhsil ocağının, xüsusilə məktəbin direktoru və fizika müəllimi Südabə Abdullayevanın böyük əməyinin olduğunu deyir: "Südabə müəllimin dəstəyini, fizika olimpiadasına hazırlaşmağım üçün hərtərəfli şərait yaratmasını, maddi və mənəvi kömək göstərməsini xüsusi vurğulamaq istəyirəm. Müəllimlərim mənə özümü kəşf etməyi, özümə inanmağı, potensialımı tam şəkildə ortaya qoymağı, çox çalışmağı aşıladılar. Akademik Fuad Hacızadənin, Namiq Süleymanovun, Rəşadət Qədiməliyevin, Nadir müəllimin, Aysel müəllimin mənim bugünkü uğurumda əvəzsiz xidmətləri var və mən müəllimlərimin hər birinə dərin minnətdarlığımı bildirirəm".

Q.Məmmədova ABŞ-nin 14 ali təhsil müəssisəsinə qəbul göndərib. Harvard Universitetindən qəbul aldığını öyrəndiyi an keçirdiyi hissləri belə ifadə edir: "Harvard mənim qəbul aldığım ilk universitet idi. Harvard Universitetindən qəbul aldığım xəbər mənim üçün çox gözlənilməz oldu, indiyədək bu dərəcədə keçirmədiyim sevinc və həyəcan hissini yaşatdı. Bunun üçün mənə özümdən çox inanan valideynlərimə təşəkkür edirəm, çünki dünyanın ən nüfuzlu ali məktəbinə qəbul olmağımın əsas səbəbi onların mənə inamıdır. Harvard Universiteti qəbul etdiyi tələbələrin bütün xərclərini qarşılayır və mənim də bütün xərclərimi öz üzərinə götürüb. Bu da məni ikiqat xoşbəxt edir".

İngilis dilindən IELTS üzrə 7.5, dinləmə hissəsindən maksimum 9, SAT üzrə isə 1460 bal toplayıb və bu nəticələri universitetə göndərib: "Universitetlərə esselər yazıb göndərmək lazım olan dönəmdə bərk xəstələnmişdim və yazdığım esseləri qənaətbəxş hesab etmirdim.Qəbul prosesində esselər böyük rol oynadığı üçün narahat idim. Lakin esselərim də universitet tərəfindən yaxşı qiymətləndirildi".

Ötən il Bakıda keçirilmiş 74-cü Beynəlxalq Astronavtika Konqresinə layihəsi ilə qatılan Qəndab Məmmədova bu barədə də söhbət açır: "Bakı Konqresində qrupumuzda ən gənc üzvlərdən biri idim. Orada iştirak və layihəmizi təqdim etmək üçün müəyyən qədər maddi vəsaitə ehtiyacımız var idi. Bu zaman "Azərkosmos" 20 gənc üçün təqaüd layihəsi elan etdi və o təqaüdü alanlardan biri oldum. Bu səbəbdən də layihəmi təqdim edə bildim. Astronavtika Konqresində müxtəlif astronomlarla, eyni zamanda kosmonavtlarla və digər maraqlı insanlarla tanış oldum. Xüsusən də Türkiyədən olan kosmonavtlarla birlikdə olmaq, onlarla söhbət eləmək məni daha çox ruhlandırdı. Buna görə də universitetlərə astronomiya sahəsi üzrə müraciət etdim. Mənim gələcək üçün tək hədəfim daha çox çalışmaq və öz sahəmdə professional olmaqdır. Düşünürəm ki, öz sahəmdə kamil olsam hər bir uğuru əldə edə bilərəm".

## "Mən Qəndab və Mehdinin fizika müəllimi olaraq belə uğurlu gənclər yetişdirdiyimiz üçün çox qürurluyam"

Bakıdakı 279 nömrəli tam orta məktəbin direktoru Südabə Abdullayeva şagirdlərinin uğuruna çox fərəhləndiyini qeyd edir. Qəndaba və Mehdiyə 2019-cu ildə 7-ci sinifdən fizika dərsi deməyə başlayan Südabə müəllim həmin dövrdə Təhsildə inkişaf və innovasiyalar üzrə III qrant müsabiqəsində "Fərdi kateqoriya"da qalib gəlib və fizika fənni üzrə olimpiada mərkəzi yaradıb. S.Abdullayeva deyir: "Monitorinq keçirərək mən öz məktəbimizdən, eləcə də ətraf məktəblərdən mərkəzə şagirdlər cəlb etdim. Qəndab həmin şagirdlərdən öz qeyri-adi istedadı və çalışqanlığı ilə seçilirdi, astronomiya və fizikanı çox sevirdi, araşdırmalar aparıb mənimlə müzakirə edirdi. Qəndabın atronomiyaya olan böyük həvəsini nəzərə alaraq mən Kosmonavtika İnstitutunun akademiki Fuad Hacızadəyə müraciət etdim və ona astronomiya üzrə xüsusi müəllimlər dərs keçməyə başladılar. Şagirdimiz 2021, 2022 və 2023-cü illərdə Respublika Fənn Olimpiadalarından gümüş medal qazandı. 2022-ci ildə Qəndab Beynəlxalq Fizika Olimpiadasına (IPHO), 2023-cü ildə isə Beynəlxalq Jautikov Olimpiadasına (IZHO) qatılaraq ölkəmizi layiqincə təmsil etdi. Ötən il ABŞ-də Rays (Rice) Universitetində keçirilən fizika və astronomiya üzrə Kopernik Olimpiadasının final mərhələsində ölkəmizi uğurla təmsil etdi, 29 ölkənin iştirakçılarını qabaqlayaraq qızıl medal qazandı. Eyni zamanda 2023-cü il avqustun əvvəlində Polşada keçirilən Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına (IOAA) qatılaraq uğurla iştirak etdi".



Mehdi Məmmədov 2017-ci ildə keçirilən Milli Məntiq Olimpiadasında bürünc, 2022-ci ildə İndoneziyanın Cakarta şəhərində keçirilən Nyuton Fizika Olimpiadasında (NiPOC) qızıl medal qazanıb. Asia Pasifik İnformatika Olimpiadasının (APIO) iştirakçısı, 2022 və 2023-cü illərdə Milli İnformatika Olimpiadasının finalçısı olub, 2023-cü ildə Milli Astronomiya Olimpiadasında gümüş, Sinqapurda keçirilən hesablama təfəkkürü üzrə Dr.CT Beynəlxalq Müsabiqəsində (Doctor CT International Contest on Computational Thinking), Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasında (IOAA) qızıl medal və Azərbaycan üzrə ən yüksək nəticə əldə edib. Bu gün mən Qəndab və Mehdinin fizika müəllimi olaraq belə uğurlu gənclər yetişdirdiyimiz üçün çox qürurluyam".

## "Vətənimə ən böyük töhfəmi verə bilərəm"



Mehdi Məmmədov bacısından bir yaş kiçik olsa da, onlar eyni ildə məktəbə gedib və eyni parta arxasında oturublar. ABŞ-nin Pensilvaniya ştatında yerləşən Dreksel (Drexel) Universitetinə "Kompüter elmləri" ixtisası üzrə qəbul olan Mehdi uğurunda müəllimlərinin rolunun əvəzsiz olduğunu vurğulayır: "Müəllimlərim məndə riyaziyyat, informatika, fizika kimi fənlərə böyük məhəbbət və maraq oyadıblar. Eyni zamanda məktəbimizin direktoru Südabə Abdullayevanın Qəndabla mənim bugünkü uğurumuzda əvəzolunmaz xidmətləri var. Mənim uşaqlıqdan kompüterə, müxtəlif texnologiya vasitələrinə xüsusi marağım olub və müəllimlərimin sayəsində bu istiqamətdə biliklərimi genişləndirmişəm. Mən 7-ci sinifdən başlayaraq bir neçə proqramlaşdırma dilləri öyrənməyə və bu sahə üzrə professionallaşmağa can atmışam. Bizim Qəndabla digər uşaqlıq arzularımızdan biri də xarici universitetlərin birində, xüsusilə ABŞ-də təhsil almaq olub. Mən ABŞ-də yerləşən bir neçə universitetə qəbul göndərmişdim və onların arasında Dreksel Universitetindən qəbul aldım. Dreksel Universitetində həyatımın məqsədi hesab etdiyim "Kompüter elmləri" ixtisası üzrə təhsil alacağam. Çox istərdim ki, Dreksel Universitetində əldə etdiyim bilikləri gələcəkdə öz həmyerlilərimlə, Azərbaycan gəncləri ilə paylaşım. Düşünürəm, bununla Vətənimə ən böyük töhfəmi verə bilərəm".

Proqramlaşdırma sahəsində əldə etdiyim bilikləri digərləri ilə paylaşmaqdan, öyrətməkdən zövq alan M.Məmmədov deyir: "Məndən 4 yaş kiçik qardaşım hazırda 7-ci sinif şagirdi olaraq məktəblilər arasında "AZERCELL CUP" proqramlaşdırma üzrə müsabiqənin bürünc medalına layiq görülüb. Çox sevinirəm ki, onun bu uğurunda mənim də payım var".

## Dünyanın 17 universitetindən qəbul alan azərbaycanlı gənc



Dəniz Məmmədzadə 2007-ci il iyunun 11-də Şəki rayonunun Orta Zəyzid kəndində anadan olub. İbtidai sinifdən bütün fənlərə maraq göstərdiyini qeyd edən Dəniz sonradan təbiət elmlərini digər elm sahələri ilə müqayisədə daha çox sevdiyini, ən çox zövq aldığı fənnin isə riyaziyyat olduğunu deyir. Musiqi, intellektual oyunlar, elmi tədqiqat işləri və şahmat ilə maraqlanır. O, aşağı siniflərdən xarici universitetlərin birində oxumağı arzu edib. 9-cu sinifdə "Biotibbi mühəndislik" ixtisasına yiyələnməyi qərarlaşdırdıqdan sonra bu ixtisas üzrə xarici təhsil müəssisələrindəki imkanları araşdırıb.

D.Məmmədzadə deyir: "UC San Diego, Vaşinqton Universiteti (University of Washington), Corciya Texnologiya İnstitutu (Georgia Institute of Technology) və s. olmaqla dünyanın 17 müxtəlif nüfuzlu ali təhsil ocaqları müraciətimi müsbət cavablandırıb və hər birindən qəbul almışam. Kolumbiya Universitetini seçməyimin səbəbi isə orada əsrlərdir davam edən keyfiyyətli təhsil ənənəsi və innovasiyaya verilən önəmdir. Həmçinin, elmi tədqiqatlarda iştirakı təmin edən "Egleston Scholars" proqramına seçilmişəm. Bu da Kolumbiya Universitetini seçməyimdə rol oynayan əsas faktorlardandır. 10-cu sinifdə SAT və IELTS imtahanlarına hazırlaşdıqdan sonra 11-ci sinifdə sənədlərin yığılması və motivasiya məktublarının yazılması prosesi başladı. Universitetlərdən qəbul aldığımı biləndə keçirdiyim hissləri sözlərlə təsvir etməkdə çətinlik çəkirəm. Sevinc hissi ilə yanaşı gələcəkdə əldə edilə biləcək imkanların həyəcanını yaşamışdım".

Dənizin hər iki valideyni həkimdir və valideynlərindən öyrəndiklərinin, onların verdiyi məsləhətlərin peşə seçimində böyük rolu olduğunu söyləyir: Mən "Biotibbi mühəndislik" ixtisası üzrə təhsil almaqla yanaşı praktik təcrübədən əlavə elmi-tədqiqat sahəsində də fəal olmağı hədəfləyirəm. Azərbaycanda biotibbi sənayenin inkişafına töhfə verən şəxslərdən biri olmaq ən böyük xəyallarımdandır".

### "Kolumbiya Universiteti Dənizi ən nüfuzlu "Egleston Scholars" təqaüd proqramına layiq görüb"

Şəki şəhər Kimya-biologiya təmayüllü liseyin direktoru Elmir Məmmədəliyev: "Dəniz Məmmədzadə Şəki şəhər kimya-biolgiya təmayüllü liseydə 2019-cu ildən təhsil alır və oxuduğu müddət ərzində məsuliyyəli, nizam-intizamlı, çalışqan,yaradıcı, humanist və nümunəvi bir şagird kimi lisey kollektivinin rəğbətini qazanıb. İstedadlı məktəblimiz bu illər ərzində bir çox nailiyyətlər əldə edib. Belə ki, 2021-ci ildə Gənc Musiqiçilərin Beynəlxalq Müsabiqəsinin diplomantı, 2022-ci ildə Böyük Qafqaz İncəsənət və Rəqs Kubokunda 1-ci, "Nə? Harada? Nə zaman?" İntellektual Oyunu üzrə Azərbaycan çempionatında 2-ci yerin sahibi, məktəblilər arasında "Breyn Rinq" üzrə VII Azərbaycan çempionatının iştirakçısı olub, Respublika Fənn Olimpiadalarının riyaziyyat fənni üzrə 3-cü yeri tutaraq bürünc, Amerika Riyaziyyat Olimpiadasında (American Mathematics Olympiad), Almaniyanın Frankfurt şəhərində keçirilən Beynəlxalq STEM Olimpiadasında (International STEM Olympiad) riyaziyyat fənni üzrə qızıl medallara layiq görülüb. 2023-cü ildə "Sabahın alimləri" XII Respublika Müsabiqəsinin finalçısı, "Fibonaççi" intellektual oyunu üzrə IV Məktəblilərarası çempionatda 1-ci yerin sahibi olub".

Elmir müəllim onu da əlavə edir ki, Dəniz liseydə şagirdlərin təlim-tərbiyə işlərində pedaqoji kollektivin yardımıçısı olaraq çıxış, olimpiadalar qalibi kimi riyaziyyat fənnindən finala yüksəlmiş şagirdlər üçün nümunəvi dərslər təşkil edir, habelə liseydaxili intellektual yarışların təşkilində və keçirilməsində aktiv şəkildə fəaliyyət göstərir.

"Bütün bu müsbət xüsusiyyətlərin nəticəsi olaraq Dəniz Məmmədzadə bu il təhsildə əldə etdiyi ugurla ölkəmizdə ilkə imza atıb. O, Amerika Birləşmiş Ştatlarının Kolumbiya,Vaşinqton, Miçiqan, Pensilvaniya, Kaliforniya universitetləri, Corciya Texnologiya İnstitutu, İngiltərənin London Kral Kolleci (Kings Kollec London) kimi dunyanın nüfuzlu təhsil ocaqlarından olan 17 "Biotibbi mühəndislik" ixtisası üzrə qəbul olaraq rekord nəticələr qazanıb. ABŞ-ın Kolumbiya Universiteti isə Dənizi özünün ən nüfuzlu "Egleston Scholars" təqaüd proqramına layiq görüb. Bu, Kolumbiya Universitetinə qəbul olunan tələbələrin yalnız 1%-nə verilən xüsusi alimlik-araşdırma təqaüdüdür", - Elmir Məmmədəliyev bildirir.

Lisey rəhbəri Dəniz Məmmədzadənin Kolumbiya Universitetinin özəl təqaüdü hesabına təhsil dövrünün ilk illərindən etibarən önəmli elmi araşdırmaların tərkibində yer alacağını qeyd edir: "Dəniz kimi nümunəvi gəncin yetişməsində müstəsna rolu olan valideynlərinə, onun inkişafı üçün böyük zəhmət çəkmiş müəllimlərinə təşəkkür edir, Dənizlə bərabər bütün şagirdlərə bol-bol uğurlar diləyirik. Lisey kollektivi adından yaradılan gözəl mühitə və verdikləri dəstəyə görə Elm və Təhsil Nazirliyinə, Təhsil İnstitutuna, Məktəbəqədər və Ümumtəhsil üzrə Dövlət Agentliyinə dərin minnətdarlığımızı bildiririk".

## Olimpiada uğurları

### Qəndab Məmmədova

**2021, 2022 və 2023-cü illər - Respublika Fənn Olimpiadalarında gümüş medal**

**2022-ci il - Beynəlxalq Fizika Olimpiadasında (IPHO) uğurlu iştirak**

**2023-cü il - Beynəlxalq Jautikov Olimpiadasında (IZHO) uğurlu iştirak**

**2023-cü il - ABŞ-də Rays (Rice) Universitetində keçirilən fizika və astronomiya üzrə Kopernik Olimpiadasında qızıl medal**

**2023-cü il - Polşada keçirilən Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasında (IOAA) uğurlu iştirak**

### Mehdi Məmmədov

**2017-ci il - Milli Məntiq Olimpiadasında bürünc medal**

**2022-ci il - İndoneziyanın Cakarta şəhərində keçirilən Nyuton Fizika Olimpiadasında (NiPOC) qızıl medal**

**2022-ci il - Asia Pasifik İnformatika Olimpiadasının (APIO) iştirakçısı**

**2022 və 2023-cü illər - Milli İnformatika Olimpiadasının finalçısı**

**2023-cü il - Milli Astronomiya Olimpiadasında gümüş medal**

**2023-cü il - Sinqapurda keçirilən hesablama təfəkkürü üzrə Dr.CT Beynəlxalq Müsabiqəsində qızıl medal**

**2023-cü il - Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasında (IOAA) qızıl medal**

### Dəniz Məmmədzadə

**2021-ci il - Gənc Musiqiçilərin Beynəlxalq Müsabiqəsinin diplomantı**

**2022-ci il - Respublika Fənn Olimpiadalarının finalında riyaziyyat fənni üzrə bürünc medal**

**2022-ci il - Amerika Riyaziyyat Olimpiadasında (American Mathematics Olympiad) qızıl medal**

**2022-ci il - Almaniyanın Frankfurt şəhərində keçirilən Beynəlxalq STEM Olimpiadasında (International STEM Olympiad) riyaziyyat fənni üzrə qızıl medal**

**2023-cü il - "Sabahın alimləri" XII Respublika Müsabiqəsinin finalçısı**

**Lamiyə ƏLİMƏRDANOVA**

# "Ağrıdan dözə bilməsəm də döyüş mövqeyini tərk etmədim"

O, bir əsgərdir. Həm təhsildə, həm hərbdə, orduda və məktəbdə. Vətən müharibəsi iştirakçısı Ülvi Qurbanov bu iki sahəni elə birləşdirib ki, özündən asılı olmadan hərbi ifadələrin təhsildəki qarşılığını, bənzərini axtarıb tapır, hərbidə "taqım"ı "sinif" olaraq izah edir.

O, bir vətənpərvərdir. Bu cür yetişməyində "Fəryad" filminin böyük payının olduğu qəhrəmanlardan biridir. Uşaqlıqdan həmin filmə ağlaya-ağlaya baxıb, amma göz yaşları gözlərində acizlik deyil, düşmənin amansızlığına nifrəti göstərib: "Anam televizoru söndürürdü ki, ağlamayım, mən daha çox ağlayırdım. Filmin üzərimdəki təsiri çox güclü olub".

Onun vətəni qorumaq istəyi o qədər ehtiraslı və ürəkdəndir ki, tale də bu istəyin qarşısında durmayıb, ömrünə həm aprel döyüşlərində, həm də Vətən müharibəsində qəhrəmanlıq yazıb: "Vətənimi, torpaqlarımı istənilən düşməndən qorumağa hazıram, bu millətin bir əsgəri olaraq Prezidentimin, Ali Baş Komandanımın əmrində, verdiyi hər tapşırığın ön sıralarındayam".



## Fiziki tərbiyə müəllimi Ülvi Qurbanovun müharibə gündəliyi

**İdman hədəfi oldu**

Ülvi Qurbanov 1993-cü ildə Masallıda doğulub. Qaradağ rayon 288 nömrəli tam orta məktəbdə təhsil alıb. Yaxşı oxuyub, ta ki idmanla məşğul olana qədər. Sonra kitabları karate əvəz edib, karateni isə sərbəst güləşə dəyişib. Birincini məcburən dəyişsə də, karate ilə güləş arasındakı seçimi məqsədyönlü olub: "Qarşımda məqsədim vardı, amma karate olimpiya oyunlarının proqramına daxil edilmədiyi üçün məni hədəfimdən uzaqlaşdırırdı. Ona görə də idman növünü dəyişdim".

**Tələbə çempion**

Kitab oxumağı, xüsusən də fizika və biologiyanı çox sevib: "Yarışlara başım qarışır, dərslərimə vaxt qalmırdı. Anama məktəbdən məlumat veriblər. O da düşdü üstümə, dərslərimdən 6 ay geri qalmışdım, anamın tənbehindən sonra 2 həftədə geri qaldığım bütün dərsləri öyrəndim. Hər dərsdə iştirak edən yoldaşlarımdan daha yaxşı cavablar verdim".

Ü.Qurbanov karate üzrə 2006-cı ildə dünya çempionatında III, 2007-ci ildə Rumıniyada keçirilən beynəlxalq turnirdə II yerə çıxıb.

2011-ci ildə tələbə adı qazanan qəhrəmanım Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında "Sərbəst güləş" ixtisası üzrə təhsil alıb. 2012-ci ildə tələbə kimi Avropa çempionu olub.

**Əlinə silah aldı, aprel döyüşçüsü oldu**

Ali məktəbi bitirib hərbi xidmətə yollanıb. Orada da korpus və ordu çempionatlarına qatılıb, aprel döyüşçülərindən biri olub. Döyüşlərdə fəal iştirakına görə təşəkkürnamə, xüsusi xasiyyətnamə alıb.

Qayıdandan sonra iş tapmaq çətin olmayıb: "İdmançı və müharibə iştirakçısı olduğumdan iş təklifləri çox alırdım. Birini seçdim və Heydər Əliyev adına hava limanında xüsusi mobil qrupda xidmətə başladım. Burada silahların texniki hazırlığını öyrədən təlimlərə qatıldım. Hərb sahəsində püxtələşdim".

**Yeni hədəfi: Müəllim olmaq**

Hərbi sahə arzularından qaynaqlanan iş olsa da, müəllimliyə marağı yaranmışdı. Öyrətmək həvəsi ilə 2019-cu ildə müəllimlərin işə qəbulu müsabiqəsinə qatılıb və uğur qazanıb. 184 nömrəli tam orta məktəbdə müvəqqəti müqavilə ilə işə başlayıb. Bu dəfə hazırlaşmaq üçün qolları çirməyib: bütün gün oxuyurdum. Nəticə göstərir ki, fiziki tərbiyə müəllimləri arasında indiyədək ən yüksək balı toplayıb: "Heç bir kömək, bələdçi olmadan, müstəqil şəkildə hazırlaşdım və 3-4 ay ərzində gecə-gündüz oxuyub 60 sualdan 54-nə düzgün cavab yazdım və 166 nömrəli tam orta məktəbdə işə başladım".

**Vətən müharibəsi başladı**

Qarabağda hərbi əməliyyatlar sentyabr ayında intensivləşsə də onun üçün müharibə Tovuz hadisələrindən sonra başlayıb. Mütəmadi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edib: "Qardaşım artıq müharibədə idi. Atam bilirdi ki, mən də mütləq gedəcəyəm".

Əvvəlcə təlimlərə qatılıblar. Amma burada da o, öyrədənlərdən olub: "Komandirim Teymur Abbaslı təlimlərdə fərqinə vardı ki, silahla düzgün davranıram, döyüş qaydalarını, tələblərini bilirəm, o da təlimlərdə köməyimdən istifadə etdi".

Nəhayət, təlimlər başa çatıb və o, böyük bir kolonun tərkibində müharibəyə yollanıb: "Müharibəyə getdiyimiz o günü qürur hissi ilə xatırlayıram. İnsanların bizi doğmaları, yaxınları kimi yola salmaları həm sevindirir, həm də qürurlandırırdı".

Beləcə, Ülvi Qurbanovun Vətən müharibəsində döyüş yolu başlayıb. Oktyabrın 3-4-də artıq Füzuli istiqamətində döyüşlərdə idi: "Hamımız ölümü unudub düşmənin üzərinə şığıyırdıq".

Füzuli istiqamətində başlayan döyüşlər Cəbrayıl, Hadrut istiqamətində davam edib. O günlər, xüsusən taqım komandiri Teymur Abbaslı ilə Hadrutda ayrılan döyüş yolunun hər ayrıntısı yaddaşına həkk olunub. Ağır itki, şəhid verdikləri döyüşləri xatırlayır: "Gözlərimin önündə təsiri hələ keçməyən çox şey oldu. Hadrut istiqamətində gedən ağır döyüşlərdən birində Teymur Abbaslı şəhid oldu. "Uşaqlar, məni vurdular", - dediyini eşitdim. Bir neçə saniyə içərisində itirdik onu. Müharibədə ermənilər qadağan olunmuş "gəzən güllə" deyilən güllələrdən istifadə edirdilər. Ona görə, haradan dəyməyindən asılı olmayaraq, öldürürdü.

**Hadrutda mühasirə**

Hadrutun içərisində başına gələnlər, dəfələrlə düşdüyü mühasirə və ən ağır şəraitdə aldığı qələbə xəbəri ən incə detalına qədər yadındadır: "Hadrutda ermənilər bizi mühasirəyə salmışdı, oradan çıxmaq şansımız yox idi. Xüsusi təyinatlılar köməyimizə gəldi və mühasirədən çıxdıq. Amma sərt yoxuşlar olan dağlıq ərazi olduğundan yıxıldım, ayağım 2 yerdən çatlayıb, 2 yerdən də çıxmışdı. Ağrıdan dözə bilməsəm də, bütün israrlara baxmayaraq, döyüş mövqeyini tərk etmədim".

Bir yandan ağrılar, digər yandan tək ayaqla qalması ağır döyüş şəraitində hərəkətini daha da çətinləşdirib: "Elə vəziyyət yaranmışdı ki, komandir də göndərə bilmirdilər, Teymurun silahı və mərmiləri də məndə idi, ağır yüklə, bir ayağımı yerə qoya bilmir, tullana-tullana birtəhər hərəkət etməyə çalışırdım".

Bu vəziyyəti "Kilsə" deyilən yerdə çətin döyüş şəraiti daha da ağırlaşdırıb, yenə mühasirəyə düşüb: "Bizim geyim formamızda, maşınlarımızda yaxınlaşan kolonun düşmən olacağı ağlımıza gəlməmişdi. Bunu anlayanda çox gec idi, hərəmiz bir tərəfə pərən-pərən düşdük. Oradan uzaqlaşmağa çalışaraq "Kilsə" istiqamətində hərəkət etdim, bir ağacın arxasında daldalandım, mövqelənib silahı özümə sarı tutub gözlədim. Əsir düşməkdənsə, özümü öldürəcəkdim. Ayağımın ağrısına dözmək hər keçən saatda çətinləşirdi. Uzun müddət silah səsləri kəsilmədi. Ara sakitləşəndə özümü aşağıda axan çaya sarı buraxdım, yuvarlana-yuvarlana, ağaclara dəyə-dəyə aşağıya endim. Bir həftə yeməksiz, susuz, tamamilə tək qaldım. Ermənilərin səsini eşidirdim. Bir gün yuxarıdan aşağı bir əsgərin düşdüyünü gördüm. Azərbaycan döyüşçüsü olduğunu anlayan kimi səslədim..."

**Zəfər elan olundu**

Döyüşçü Ülvi Qurbanov müharibənin son günlərini belə qeyd edib: "Tuğda, sonra Tağlarda döyüşlərə qatıldıq. Tağlarda artıq düşmən geri çəkilirdi. Zəfər yaxınlaşırdı. Postdaydıq. Əlaqəmiz kəsildiyindən nə baş verdiyindən xəbər tuta bilmirdik. Axşam hər tərəfdən atəş səsləri gəlməyə başladı. Elə bilirdik ki, böyük hücum var, bütün istiqamətlərdə döyüşlər gedir. Mövqelərimizdə pusqu qurub düşməni gözləyirdik. Sən demə, Ermənistan məğlubiyyətini qəbul edib, bizimkilər də havaya atəş açaraq qələbəni qeyd edirlər".

Dekabrın 26-da ordudan tərxis olunan Ü.Qurbanov Vətən müharibəsində göstərdiyi qəhrəmanlığa görə "Füzulinin işğaldan azad olunmasına görə", "Xocavəndin işğaldan azad edilməsinə görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

**Yenidən məktəbdə**

Məktəbə bir gün gec gedib: "Məktəbdə yeni işə başlamışdım deyə heç kimlə əlaqəmiz yox idi. Direktorun otağında bir neçə nəfər vardı. Mən içəri girəndə elə məndən danışırmışlar, hər birinin gözləri doldu, məni qucaqladılar. O qədər səmimi qarşılanma idi ki..."

Ü.Qurbanovun beli zədələndiyindən peşəkar idmandan uzaqlaşmaq məcburiyyətində qalıb, amma güləş meydanında qurşaq tutan yeni nəslin yetişməsinə töhfə verir, 4 ildir həm də güləş üzrə məşqçi işləyir. Yetirmələri arasında artıq ölkə çempionları da var. Deyir o, çempion olmağın sirrini bilir və bu səbəbdən yetirmələrinin uğur qazanacağına şübhə etmir.

Təhsildə isə növbəti hədəfi var: "5 ildir ki, müəllim işləyirəm. Artıq direktorların işə qəbulu imtahanlarında da iştirak etməyi düşünürəm".

**R.HÜSEYNOVA**

# MDU ilə Riyaziyyat və Mexanika İnstitutu arasında birgə fəaliyyət planı imzalanıb

Aprelin 1-də Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutunda Mingəçevir Dövlət Universitetinin (MDU) nümayəndə heyəti ilə görüş keçirilib. Bu barədə AZƏRTAC-a MDU-dan məlumat verilib.

Görüşdə institutun baş direktoru professor Misir Mərdanov ötən ilin noyabrında Mingəçevirə səfərini xatırladaraq MDU ilə əməkdaşlığın qurulmasından məmnunluğunu dilə gətirib. Rəhbərlik etdiyi institutun mövcud elmi potensialından və buna müvafiq surətdə işbirliyi çərçivəsində həyata keçiriləcək fəaliyyətlərin mümkün istiqamətlərindən bəhs edən baş direktor region universiteti olan MDU ilə əməkdaşlıq etməyə və onun potensialının inkişafına töhfə verməyə daim açıq olduqlarını bildirib.

MDU-nun rektoru Şahin Bayramov universitetdə riyaziyyat sahəsində kadr hazırlığının mövcud vəziyyətindən və ehtiyaclarından bəhs edib. Qarşılıqlı əməkdaşlığın universitetdə elm və ali təhsilin inteqrasiyasına, eləcə də MDU-nun yerləşdiyi regiondakı ümumtəhsil müəssisələrində riyaziyyat fənninin tədrisinin keyfiyyətinin yüksəldilməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Sonra MDU ilə Riyaziyyat və Mexanika İnstitutu arasında qarşılıqlı əməkdaşlıq haqqında 2023-cü ilin noyabrında imzalanmış anlaşma memorandumundan irəli gələn məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Görüşün sonunda həyata keçiriləcək konkret tədbirləri özündə əks etdirən birgə fəaliyyət planı imzalanıb.

Fəaliyyət planında institut əməkdaşlarının MDU-da ustad dərsləri keçirməsi və magistr dissertasiyalarına rəhbərlik etməsi, MDU əməkdaşlarının institutun elmi seminarlarında iştirakı, birgə elmi tədqiqatların aparılması və ortaq elmi məqalələrin dərc olunması, MDU-da riyaziyyat festivalının təşkili, Mingəçevirdə riyaziyyat olimpiadasının keçirilməsi və digər tədbirlərin reallaşdırılması nəzərdə tutulub.

Qeyd edək ki, hazırda müasirləşməkdə olan MDU-da kadr hazırlığının və elmi fəaliyyətin məzmununun təkmilləşdirilməsi məqsədilə qabaqcıl yerli və xarici universitetlərlə, eləcə də elmi-tədqiqat müəssisələri ilə əməkdaşlığa xüsusi önəm verilir.

# Daha 200 nəfər IELTS imtahanından faydalanacaq

## Layihəyə daha 2 universitet də qoşulacaq



Fəridə Hüseynzadə



Nərmin Əliyeva

Azərbaycan ali məktəblərinin akademik heyəti və tələbələri arasında IELTS imtahanlarında 6.5-dən yuxarı nəticə göstərənlərin ödənişini Təhsilin İnkişafı Fondu geri qaytarır.

Təhsilin İnkişafı Fondu (TİF) və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) birgə həyata keçirdiyi layihə artıq ingilis dilinə hazırlaşan tələbə və müəllimlər arasında tanınır.

Layihə çərçivəsində 2023-cü il ərzində IELTS imtahanında iştirak edən və yüksək bal toplayan 300 nəfər akademik heyət üzvü və tələbənin bu imtahan üzrə ödənişlərini Fond qarşılayıb və bu, layihə başlayarkən elan olunan rəqəmin tamamlandığı deməkdir.Elə isə layihə yekunlaşdımı?

TİF-də Təhsilin İnkişafı Fondunun Layihələrin idarə olunması şöbəsinin aparıcı mütəxəssisi, layihənin koordinatoru Fəridə Hüseynzadə "Azərbaycan müəllimi" qəzetinə bildirib ki, layihə 2024-cü ildə də davam edəcək və daha 200 nəfərin imtahan nəticələrinə baxıb ödədiyi məbləği geri qaytaracaqlar.

**Tərəfdaşları da artır**

Amma həmin 200 nəfər daha böyük siyahıdan seçiləcək. Belə ki, 2022-ci ildə Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, o cümlədən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tərəfdaşlığı ilə start götürən layihənin əhatəsi indi bir az da genişlənib. Belə ki, keçən il Bakı Slavyan Universiteti də tərəfdaşlar siyahısına daxil olub və bu, son deyil. F.Hüseynzadənin sözlərinə görə, 2024-cü ildə Bakı Mühəndislik Universiteti və Sumqayıt Dövlət Universitetinin layihənin yeni tərəfdaşları olacağı gözlənilir.

**Bu şansdan kimlər istifadə edə bilər?**

Odur ki, adıçəkilən təhsil müəssisələrində təhsil alan və ya çalışan akademik heyət üzvləri layihəyə cəsarətlə qoşula bilərlər. Müraciət edən həmin şəxslərin IELTS imtahanı nəticəsi ümumi 6.5 baldırsa, imtahan xərclərini fond qarşılayacaq.

**"Layihə IELTS imtahanına hazırlaşmaq üçün stimul oldu, imtahana getmək üçün cəsarət verdi"**

Təhsilverən və təhsilalanların dəstəklənməsi, universitetlərin elmi-pedaqoji heyət üzvlərinin və təhsilalanların ingilis dilini mənimsəməsi üçün uyğun əlverişli şəraitin yaradılmasına xidmət edən layihə öz məqsədinə çatırmı?

Layihə qaliblərindən olan Nərmin Əliyeva Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tikinti iqtisad fakültəsinin tələbəsidir. "Marketinq" ixtisası üzrə təhsil alır: "Daha çox kompüter elmləri ilə maraqlanıram. İlk dəfə IELTS-də iştirak etdim və 7 bal topladım".

Xaricdə təhsilini davam etdirmək istəyən N.Əliyeva layihənin çox faydalı olduğuna inanır: "Özümü yoxlamağım üçün bu, bir şans idi. 3 ay hazırlaşaraq bu nəticəni əldə etdim. İmtahanda yüksək nəticə göstərsəm, ödədiyim məbləğin geri qaytarılacağını ingilis dili müəllimimdən öyrəndim. Mənim üçün çox faydalı oldu bu layihə. IELTS imtahanına hazırlaşmaq üçün stimul oldu, imtahana getmək üçün cəsarət verdi. Düşünürəm ki, imkansızlıq üzündən IELTS-ə gedə bilməyənlər üçün möhtəşəm layihədir".

**"Qalib olmaq, ödənişsiz imtahan verə bilmək üçün çox çalışdım"**

Aslan Kazımov da layihənin uğurlularındandır. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində "İnformasiya Təhlükəsizliyi" ixtisası üzrə IV kurs tələbəsidir. Banklardan birində informasiya təhlükəsizliyi şöbəsinin mütəxəssisi vəzifəsində çalışır: "Təhsilin İnkişafı Fondunun bu layihəsi haqqında III kursdan məlumatlıyam, universitet rəhbərliyi məlumat vermişdi. Bu layihə mənə imtahanda iştirak etmək üçün imkan yaratdı. Qalib olmaq, ödənişsiz imtahan verə bilmək üçün çox çalışdım və uğur qazandım. 8.5 nəticə ilə imtahandan keçdim. Nəticə məlum olandan bir müddət sonra vəsaiti tam şəkildə qaytardılar".

**Ruhiyyə DAŞSALAHLI**

# Məhdudiyyət tanımayan təhsil mühiti

Aprelin 2-də dünya Auitizm Maarifləndirmə Gününü qeyd etdi. 2020-ci ilin hesabatına görə, ölkəmizdə qeydiyyatda olan autizmli uşaqların sayı 1383, atipik autizmli (atipik təqdimatlı autizm spektri pozuntusunun bir növü) uşaqların sayı isə 46 nəfərdir. Amerika Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzinin 2022-ci ilin statistikasına görə, 1985-ci ildən bəri uşaqlar arasında autizm xəstəliyi 50 dəfə artıb. Yəni 38 il əvvəl 2500 uşaqdan birində müşahidə edilən autizmə indi hər 36 uşaqdan birində rast gəlinir. Oğlanların dörd, qızların isə bir faizinə autizm diaqnozu qoyulduğuna diqqət çəkən mütəxəssislərin fikrincə, erkən diaqnoz və müdaxilə nəticəsində bu şəxslərin və yaxınlarının həyatını asanlaşdırmaq olar. Onların həyatını asanlaşdırmağın ən yaxşı yolu isə vaxtında təhsilə cəlb edilmələridir. Çünki erkən pedaqoji müdaxilə onların inkişafına təkan verir.



*Anar Xələfov:*

## “Xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün lazım olan şəraitin yaradılması əsas məqsədimizdir”

**Fərqliliyi olanların həyatını necə asanlaşdıraq?**

Xüsusi təhsil mütəxəssisləri hesab edirlər ki, məhdudiyyəti olan insanların bizə uyğunlaşacağını gözləməli deyil, mühiti, cəmiyyəti, təhsili onlar üçün uyğunlaşdırmalıyıq ki, onların rahatlıqla inteqrasiyasına imkan yaransın. “Azərbaycan müəllimi” qəzetinə müsahibəsində Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) xüsusi təhsil sektorunun müdiri Anar Xələfov mövzu ilə bağlı fikirlərini bölüşür: “Cəmiyyətdə əlilliyin dərki ilə bağlı çətinliklərimiz var. Xüsusən valideynlərə izah etməliyik ki, uşağın daha tez uyğunlaşmasına kömək etmək lazımdır. Valideynlə danışmaq, onu əməkdaşlığa dəvət etmək bizim öhdəliyimizdir”.

Bu öhdəliyi vaxtında yerinə yetirə bilmək üçün qurumlarla əlaqəli iş qurulub: “Yerli təhsili idarəetmə orqanlarında 6 yaşı olan uşaqların məlumatları toplanır. Hazırda inklüziv təhsilə cəlb etmə ilə bağlı poliklinikalardan məlumatların toplanma prosesi gedir. Əlillik statusu alıb-almamalarından asılı olmayaraq, bütün sağlamlıq məhdudiyyəti olan uşaqların siyahısı hazırlanır, psixoloji-tibbi-pedaqoji komissiya onları müayinə edir və ehtiyaclarını müəyyənləşdirir. Bu məlumatlar əsasında valideynə müraciət olunur, komissiyaya dəvət edilir. Valideyn bu çağırışdan yayınarsa, uşağın müayinəsi çətinləşir, təhsilə cəlb olunması ləngiyir. Bu da, ilk növbədə, uşağa ziyan olur, 7-8 yaşına qədər evdə təcrid olunaraq təhsil hüququ pozulur, vaxtı gedir, fiziki, emosional, sosial və koqnitiv durumu ağırlaşır”.

Valideyn uşağının təhsilini və inkişafını niyə istəməsin ki? Anar Xələfov bunu onların gələcəyinə, iqtisadi müstəqilliyinə inamsızlıqla əlaqələndirib: “Tədqiqatlar göstərir ki, valideynlər sağlamlıq imkanları məhdud uşaqların iqtisadi baxımdan müstəqil olacaqlarına inanmırlar. Təcrübə göstərir ki, sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili ilə yanaşı, onlara yaradılan şərait, iş imkanları, hər sahədə nəzərə alınmaları onların gələcəyinə inamı artırır”. Bəs, Azərbaycanda bu inamı təmin edəcək, gücləndirəcək hansı işlər görülüb? Ölkəmizdə əlilliyə görə müavinət alan 47 min nəfərdən 31855 nəfəri təhsilə cəlb edilib. Ancaq onların hamısı xüsusi təhsilə ehtiyac duymur. 2023-2024-cü tədris ilində ölkəmizdə 12044 uşaq xüsusi təhsilə, bunlardan 220 nəfəri 40 məktəbdə inklüziv siniflərdə, 647 uşaq 15 inteqrasiya təlimli internat məktəbində təlim-tərbiyə prosesinə cəlb olunub. 578 uşaq 137 ümumtəhsil məktəbi nəzdində yaradılan xüsusi siniflərdə, 7210 uşaq evdə, 1946 uşaq 8 xüsusi tipli internat məktəbində, 1443 uşaq 5 xüsusi məktəbdə təhsil alır.

**Xüsusi təhsilin dövlət standartları müəyyənləşib**

Xüsusi təhsilin necə təşkil edildiyinə gəlincə, fevral ayında ölkəmizdə xüsusi təhsilin dövlət standartları təsdiq edilib. 5 ildən bir yenilənməsi nəzərdə tutulan “Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili üçün xüsusi təhsilin dövlət standartları” müxtəlif sağlamlıq məhdudiyyətləri olan təhsilalanların müəssisələrə qəbul olunma prosedurunu, cəlb olunduğu müəssisələrdə təhsil müddətini və verilən təhsil sənədlərini müəyyən edir.



Lakin sağlamlıq imkanları məhdud olanlar, sadəcə xüsusi təhsil müəssisələrində təhsil almırlar. Standarta görə, sağlamlıq imkanları məhdud təhsilalanların sayı 100 nəfərdən az olduqda, ümumi təhsil müəssisələrində xüsusi siniflər təşkil edilir. Psixoloji-tibbi-pedaqoji komissiyanın qərarı ilə təhsilalan xüsusi ümumtəhsil məktəbinə, internat tipli xüsusi ümumtəhsil məktəbinə, inteqrasiya təlimli ümumtəhsil məktəbinin xüsusi sinfinə, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbinin xüsusi sinfinə və ya sağlamlığı imkan verərsə, ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbinə köçürülür: “Uşağın xüsusi təhsilinin təşkili ilə bağlı qərarı ancaq psixoloji-tibbi-pedaqoji komissiya verə bilər. Ancaq gələcəkdə istəyərik ki, bu məsələ məktəbin səlahiyyətinə keçsin. Çünki uşağa faydalı olacaq təhsil formasını tədris ili ərzində onu tanımaq imkanı əldə edən məktəbin daha yaxşı müəyyənləşdirəcəyinə inanırıq”.

**İnteqrasiyalı təhsil**

Onu da qeyd edək ki, xüsusi təhsilin təşkil edildiyi müəssisələr və təhsil formaları çox olsa da, ölkəmizdə bütün uşaqların ümumi təhsil müəssisələrində təhsilinə üstünlük verilir: “Xüsusi təhsil sinifləri uşaqların evdə təhsilinin, cəmiyyətdən təcrid olunmasının, eyni zamanda ailədən kənarda - internat məktəblərinə düşməsinin qarşısını almaq məqsədilə ayrı-ayrı yerlərdə, hətta kəndlərdəki ümumi təhsil müəssisələrində təşkil edilir. Bu yolla bütün uşaqların birgə və ən yaxın məktəbdə təhsilini təmin etməyə çalışırıq. Ona görə də son 5 ildə məhz xüsusi təhsil siniflərinin təşkilinə üstünlük veririk. 137 ümumtəhsil məktəbi nəzdində yaradılan xüsusi siniflərimiz var və 578 uşaq bu formada təhsil alır. İnteqrasiyalı təhsil çərçivəsində intellektual, ya da nitq məhdudiyyəti olan hətta 1 uşaq üçün belə ona ən yaxın məktəbdə xüsusi sinif təşkil edilir. Həmin uşaqların hər biri ağır məhdudiyyəti olan, bir neçə il bundan əvvəl olsaydı, ailəsindən ayırıb internat tipli xüsusi təhsil müəssisəsinə yerləşdiriləcək olanlardır. Biz həmin uşaqlar üçün ümumi təhsil müəssisələrində xüsusi siniflər təşkil etməyə üstünlük veririk və bu proses bundan sonra da davam edəcək”.

**İnklüziv məktəbdə**

Buna baxmayaraq, ümumi təhsildə hər kəs üçün səmərəli tədris forması inklüziv təhsildir və Azərbaycanda təhsil siyasəti dünya praktikasına uyğun olaraq məhz bu təhsil formasını dəstəkləyir.

İnklüziv təhsil - uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsidir. Əlilliyi olan uşaqlarla əlilliyi olmayan uşaqların birgə inklüziv sinifdə oxuması fərqliliyə münasibəti dəyişməyə, özünə hörmətin və həmyaşıdların qəbulunun yaxşılaşdırılmasına səbəb olduğu kimi, eyni sinifdə həyata keçirilən tədris prosesində təhsilverənləri də şagirdlərə fərdi yanaşmağa sövq edir.

Hələlik 40 ümumi təhsil müəssisəsində reallaşan inklüziv siniflərin bütün təhsil müəssisələrimizdə təşkili əsas hədəfdir. MÜTDA-nın sektor müdiri A.Xələfov bildirib ki, inteqrasiyalı təhsil inklüziv təhsilə nail olana qədərki dövrdə üstünlük verdiyimiz təhsil formasıdır: “Birdən-birə bütün məktəblərdə inklüziv təhsili həyata keçirə bilmirik. Ümumi təyinatlı təhsi müəssisələrində xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün lazım olan şəraitin yaradılması əsas məqsədimizdir. Ona görə də inteqrasiyalı təhsil tətbiq edirik. Əsas məsələ ailəsində qalmaqla uşaqların təhsil hüququnun təmin olunmasıdır”.

İnklüziv təhsil hüququnun təmin olunması üçün isə ölkəmizdə “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın icrası çərçivəsində xeyli müsbət nəticələr əldə olunub. Təkcə paytaxt üzrə ümumilikdə 18 təhsil müəssisəsində 150-yə yaxın sağlamlıq imkanı məhdud şagird inklüziv təhsilə cəlb edilib.

Həmin təhsil müəssisələrindən biri Bakı şəhəri 202 nömrəli tam orta məktəbdir. “İnklüziv məktəb” layihəsinə 2016-cı ildən qoşulan müəssisənin uğurları da var. İnklüziv siniflərdən birinin şagirdi Ədalət Hüseynli məktəbdəki fərqliliyi olan 28 uşaqdan biridir. III sinif şagirdi məktəbdə özünü yaxşı hiss edir. Məktəbi xoşladığını, tədbirlərdə mahnı oxuduğunu, hətta rəqs eləməyi öyrəndiyini deyib.

Hər ehtiyacı olanda sinif yoldaşlarından kömək alır. Məsələn, Xədicə Bayramlının Ədalətlə söhbət eləməkdən xoşu gəlir: “Hamımız Ədaləti çox sevirik. Məktəbimizdə ona kömək edirik. Nə köməyə ehtiyacı olsa, həvəslə bunu edirik”.

Qasım da məktəbi sevir saymağı bacarır, hesablaya bilir, tam sosiallaşıb.

Yaxud Daun sindromlu Fatimə öz rəssamlıq qabiliyyəti ilə indiyədək böyük uğura imza atıb. Fikirlərini o qədər də yaxşı ifadə edə bilməsə də, məktəbə cəlb olunandan bu yana çox böyük yol qət edib.

Məktəbin ibtidai sinif müəllimi Sevda Balakişiyeva sinfindəki xüsusi təhsilə ehtiyac duyan uşaqlarından danışıb: “Şəmsi Ağazadə ilə sıfırdan başlamışıq. Artıq xeyli irəliləmişik. Yusuf Bayramlı sərbəst danışır, nağıl qurur. Şəmsiyə, ya da Yusufa “Afərin”, - deyəndə şagirdlərimin hamısının üzü gülür, alqışlayırlar. Bu vəziyyət Şəmsi ilə Yusufun da çox xoşuna gəlir, çox həvəslənirlər”.

Növbəti tədris ilində ilk inklüziv sinfinin buraxılışına hazırlaşan məktəb öz şagirdlərinin fəallığı ilə öyünür. Direktor Gülüstan Vəliyevanın sözlərinə görə, inklüziv siniflər sayəsində məktəbdə sağlam psixoloji mühit formalaşıb: “Tədbirlərimizdə hamı kimi fərqliliyi olanlar da şeir deyir, rəqs edirlər. Günləri çox maraqlı keçir. Nəinki uşaqlar, valideynləri də uşaqlarını xoşbəxt gördükcə, onlarda irəliləyişi müşahidə etdikcə sevinir, razılıqlarını bildirirlər”.



Yağmur Kərimova



Elnarə Ramazanova

**Məhdudiyyəti olanlar ali təhsildə**

Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) 18 nəfər fiziki məhdudiyyəti olan tələbə təhsil alır: “Həmin tələbələrə universitetimizdə bütün imkanlar yaradılıb. Hərəkət məhdudiyyəti olanlar üçün AzMİU-nun tədris binalarının girişində panduslar mövcuddur”.

Bakı Mühəndislik Universitetində (BMU) təhsil alan tələbələr arasında autizm spektr pozuntusu müşahidə olunan şəxslər yoxdur. Universitetdən bildirilib ki, burada əlilliyi daha çox daxili xəstəliklərdən, həmçinin görmə qabiliyyətinin qismən itirilməsindən qaynaqlanan 10 tələbə təhsil alır: “Bu tələbələrin təhsil haqqını dövlət ödəyir. Əlilliyi olan şəxslərin təhsil hüququnun təminatına dəstək çərçivəsində onlar ödənişsiz təhsil hüququndan yararlanırlar”.

Universitetdə əlilliyi olan tələbələrin inkişaf imkanları, həmçinin onlar üçün infrastrukturun əlçatanlığı baxımından hər hansı problem yoxdur.

Bakı Dövlət Universitetində (BDU) təhsil alan 30-a yaxın sağlamlıq imkanları məhdud tələbə üçün xüsusi yanaşma tətbiq olunur. Təhsilin bütün mərhələlərində mühazirə və məşğələlərdə qruplarda tələbələrlə birgə iştirak etməklə onların universitet mühitinə inteqrasiyası, maneəsiz hərəkəti, tədris infrastrukturunun onlar üçün əlçatanlığının təmin olunması üçün lazımi şərait yaradılır. BDU-da onların laboratoriyalarda fərdi və kollektiv istifadə üçün nəzərdə tutulan texniki vasitələrlə işləməsinə texniki və psixoloji kömək göstərmək məqsədilə könüllü tələbələrdən assistentlər ayrılır, onlar yaradıcı kollektiv və idman seksiyalarında iştiraka cəlb edilirlər. Tədris korpuslarına maneəsiz daxil olmaları, sərbəst hərəkətləri üçün xüsusi məhəccərlər, tutacaqlar, panduslar quraşdırılıb. Onlara sessiya dövründə şifahi qaydada imtahanlarda iştirak etmək üçün şərait yaradılır”.

Universitetdə yaradılan bu imkanlardan istifadə edən Yağmur Kərimova İnformasiya və sənəd menecmenti fakültəsində Kitabxanaçılıq və informasiya fəaliyyəti ixtisası üzrə təhsil alır. I qrup gözdən əlildir. 32 yaşlı tələbə pandemiya dövründə ali təhsil almağa qərar verib: “Tez-tez əlillər üçün yaradılan şərait barədə eşidirdim. Şərait yaradılıb, mən də istifadə etmək istədim. Məktəbdə yaxşı oxumuşdum. Odur ki, gec də olsa, qərar verdim və ailəm də məni dəstəklədi.

Hazırda universitetdə qiyabi təhsil alıram. Universitetə ilk dəfə gələndə qorxurdum. Ancaq qorxmağa dəymədiyini çox keçmədən anladım. Artıq 4-cü semestrə başlamışam. Təhsilim uğurla davam edir. Universitetin qapısından daxil olduğum andan hər kəs köməyini təklif edir. Heç çətinliyim yoxdur”.

**Müəllimlikdə uzun bir yolun yolçusudur**

Elnarə Ramazanova isə ali təhsilini də tamamlayıb və artıq müəllim işləyir.Şüvəlandakı 230 nömrəli tam orta məktəbin fizika müəllimidir.

Ana bətnində serebral iflic keçirib, doğulanda ayağı çıxıb və bu əyripəncəliklə nəticələnib. Yeriməsi 3 yaşına, oxumağa başlaması isə 9 yaşına çəkib. Məktəbə də təsadüfən gedib.

Müəllimləri ona inanıb: “Atam məni universitetə getməyə qoymurdu. Fizika müəllimim atamla danışdı. Dedi ki, qızınız oxumalı, təhsil alaraq bir peşəyə yiyələnməlidir. Öz ayaqlarım üstündə dura bilməyim üçün bunun vacib olduğunu atama izah edərək, onu razı saldı”.

Bu da nəticə. Valideynlərinin “Qızdır, oxumağına ehtiyac yoxdur”, deyib məktəbə belə göndərmədikləri o qız taleyini məktəblə bağlayıb. “Yol yorğunu olar”, - deyib yaxınlıqda məktəb axtardıqları Elnarə böyüyüb müəllimlikdə illərdir davam edən uzun bir yolun yolçusudur.

**Ruhiyyə DAŞSALAHLI**

# “Öyrəndiklərimi gələcəkdə tələbələrimə ötürmək istəyirəm”

*Beynəlxalq müsabiqə qalibi Mehdi Sadıqzadə:*

## Arzusu ifaçı, müəllim kimi fəaliyyət göstərməkdir



Mehdi Sadıqzadə orta təhsilini Neftçala şəhər “Muğan” liseyində, ilk musiqi təhsilini isə 7 illik Uşaq İncəsənət Məktəbində alıb. Fitri istedad sahibi olan bu gənc Milli Konservatoriyanın nəzdindəki Asəf Zeynallı adına Musiqi Kollecinin IV kurs tələbəsidir. Təhsil aldığı müddətdə “İxtisas-not” fənn müəllimi, Xalq Çalğı Alətləri şöbəsinin müdiri, qabaqcıl təhsil işçisi Cəfər Qafarlı Azərbaycanın qədim simli musiqi aləti olan tarın sirlərini, “Muğam”ın zənginliklərini isə Xalq artisti Elçin Həşimov həvəslə ona mənimsədir. Gənc istedadla söhbətdə öyrəndim ki, davamlı olaraq Respublika və beynəlxalq müsabiqələrə qatılır və yüksək nəticələr qazanır. 2022-ci ilin mayında o, mərhum Xalq artisti, görkəmli bəstəkar və pedaqoq, professor Səid Rüstəmovun anadan olmasının 115 illiyinə həsr olunan müsabiqədə I dərəcəli diplomla mükafatlandırılıb.

**Beynəlxalq müsabiqələrdə**

Mehdi Sadıqzadə: -“Çoxdankı arzum idi beynəlxalq müsabiqələrə qatılmaq. Nəhayət ki, 2023-cü il mənim üçün yaddaqalan il oldu. Moskvada keçirilən “Grand Music Art” ifaçıların XIV Beynəlxalq müsabiqəsində uğur qazandım. Münsiflər I dərəcəli diplomu mənə təqdim edəndə sevincimin həddhüdudu yox idi. Bu fəxri yeri qazanmaq məni öz üzərimdə daha da səylə çalışmağa həvəsləndirdi. 2023-cü ilin əvvəllərində Azərbaycan Respublikasının Rus icması nəzdində Rus mədəniyyət mərkəzinin XVII Respublika müsabiqəsində I, həmin ilin mayında isə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan Respublika müsabiqəsində II dərəcəli diplomlarla təltif olunaraq laureat adına layiq görüldüm.

**“Muğamlarımızı ifa edərkən...”**

Mütəmadi olaraq kollecdə və kollecdənkənar tədbirlərdə müxtəlif xarakterli, dərin məzmunlu fəlsəfi əsərlərlə çıxış edib: “İ.Dunayevskinin “Kapitan Qrantın uşaqları” bədii filmindən “Uvertüra”nı, H.Vəkilovun “Çılğın rəqs”, C.Rossininin “Neopolitan tarantellası” və sair dünya bəstəkarlarının əsərlərini məharətlə ifa edirəm. Mərhum tarzən və pedaqoq Ə.Bakıxanovun 130 illiyinə həsr olunan yubiley tədbirində T.Bakıxanovun “1 saylı Konsert”ini ifa etdim və müəllif tərəfindən çox yüksək dəyərləndirildim. Tədbirlərdə muğam ifası ilə də çıxışlarım az olmayıb. “Çahargah”, “Bayatı -Şiraz”, “Şahnaz” muğamlarını ifa edərkən tamaşaçılar tərəfindən coşqu hissi ilə qarşılanmışam”.

**“Ustad dərsləri” layihəsinin iştirakçısı**

Sevinir ki, tanınmış muğam müəllimi Elxan Müzəffərovun iştirakı ilə Beynəlxalq Muğam Mərkəzinin təşkil etdiyi “Ustad dərsləri” layihəsinin iştirakçısı olub. 2021- ci ildən müəllimi C.Qafarlının təşəbbüsü ilə yaratdığı trio qrupu ilə çalışır: “Trio tərkibində bir çox tədbirlərdə iştirak etmişik. Muzey mərkəzində, görkəmli elm və mədəniyyət xadimlərinin ev-muzeylərində, ictimai birliklərin tədbirlərində, eləcə də “Mədəniyyət” və “Xəzər” televiziya kanallarının efirlərində çıxışlar edərək diplom və Fəxri fərmanlara sahib olmuşam”.

Arzusu hərbi xidməti başa vurduqdan sonra Azərbaycan Milli Konservatoriyasında ali təhsil almaq, ifaçı və müəllim kimi fəaliyyətini davam etdirməkdir: “Müəllimlərimdən öyrəndiklərimi gələcəkdə tələbələrimə ötürmək istəyirəm. Bu, həm mənim borcumdur, həm də olduqca şərəfli bir işdir”.

**“Mehdi istedadlı tələbədir”**

Müəllimi Cəfər Qafarlı tələbəsi haqqında: “Mehdi mənim sinfimdə təhsil aldığı bu 4 il müddətində özünü olduqca çalışqan, özünə qarşı tələbkar, məsuliyyətli, geniş maraq dairəsi olan tələbə kimi göstərə bilib. İstedad və bacarığını nəzərə alaraq kollecin direktoru, Əməkdar incəsənət xadimi, professor Nazim Kazımov onu daim diqqət mərkəzində saxlayır, bütün konsert tədbirlərində onun çıxışlarına önəm verir...

...Mehdi doğrudan da çox istedadlı tələbədir. Onun musiqini hiss etmə, duyma qabiliyyətini və ifa texnikasını inkişaf etdirməklə yüksək göstəricilərə nail olmuşuq. Bu illər ərzində Azərbaycan və xarici ölkə bəstəkarlarının müxtəlif janrlı əsərlərini ifa etməklə yanaşı xüsusilə tar ifaçılığı üçün yazılmış irihəcmli mürəkkəb əsərləri də məharətlə təqdim edə bilir. Yetirməm dəfələrlə Respublika və Beynəlxalq müsabiqələrin laureatı olub. Moskva şəhərində keçirilən “GRAND MUSİC ART” müsabiqəsində qalib olduğu zaman münsiflər heyətinin sədri, Rusiya Musiqi Akademiyasının professoru, Rusiya Federasiyasının Xalq artisti, virtuoz ifaçı Aleksandr Tsıqankov Mehdi haqqında rəy bildirərkən dedi: “Bu gənc tar aləti ilə dostluq münasibətini tam olaraq qura bilmişdir. Əminliklə deyə bilərəm ki, alət və ifaçı bir-birini tamamlayır. Sanki onlar tarla birlikdə nəfəs alırlar”.

...Qarşıda Mehdini hələ çoxlu sınaqlar, festivallar, bayram tədbirləri, bir sözlə, parlaq ifalar gözləyir. Çox güman ki, tarın ecazkar səsini, yaratdığı möcüzələri dinləyicilərə sevdirməklə yanaşı, gənc ifaçı seçdiyi sənətin sirlərinə məharətlə yiyələnərək Əhsən Dadaşov, Həbib Bayramov kimi tarın dili ilə danışmağı bacaran bənzərsiz sənətkarların davamçısı ola biləcək.

**Sifai SƏFƏROVA**


Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

## Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

aşağıda adı çəkilən kafedralarda vakant vəzifələri tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

| № | Kafedra | Vəzifə | Yer |
|---|---|---|---|
| 1. | Kino–televiziya sənətləri kafedrası | professor 0.5 ştat vahidi | 1 |
| 2. | Kino–televiziya sənətləri kafedrası | baş müəllim | 1 |
| 3. | Təsviri sənət kafedrası | dosent | 1 |
| 4. | Dizayn və dekorativ-tətbiqi sənət kafedrası | dosent | 1 |
| 5. | Təsviri sənət tarixi və nəzəriyyəsi kafedrası | baş müəllim | 1 |

Müsabiqədə kafedraların profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39
**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**



## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan nəşriyyatı” MMC, 9-cu mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 527 **Sifariş** 803
**Məsul növbətçi:** Ş.Cəfərov




## Etibarsız sayılır



**Qubadlı rayon** İ.Qayıbov adına Saray kənd tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Sadıxova Jalə Sərdar qızına verilmiş A-459951 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2007-ci ildə Qəmbərova (Yolçuyeva) Aygün Dərgah qızına verilmiş B-080388 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 254 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Heydərzadə Fatimə Əvəz qızına verilmiş E-140007 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 252 nömrəli məktəb-liseyi 2005-ci ildə bitirmiş Umarova Könül İsrayıl qızına verilmiş B-216137 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2015-ci ildə Tarverdili Jalə Şahbala qızına verilmiş A-078447 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Mehdiabad qəsəbə 1 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Camalov Xeybər Zakir oğluna verilmiş A-243892 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Ziyadlı kənd tam orta məktəbi 2022-ci ildə bitirmiş Məmmədova Həyat Əhməd qızına verilmiş E-472967 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Şiyəkəran kənd 1 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Əhədova Gülnar Şəhənulla qızına verilmiş B-427415 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Siyəzən rayon** Balaca Həmyə kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş Şərifova Aynur Məmmədşah qızına verilmiş A-130206 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Nərimankənd kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Ağayeva Faiqə Faiq qızına verilmiş B-391973 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Sabirkənd kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Pirqələmova (İsmayılova) Samirə Vəkil qızına verilmiş B-323272 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Dəllər-Cəyir kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Seyidli İsmət Seymur oğluna verilmiş A-349697 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Alar kənd 1 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Məmmədov Samir Ədalət oğluna verilmiş 14 nömrəli tam orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 96 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Əsədullayeva Afət Maşallah qızına verilmiş A-404810 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 129 nömrəli tam orta məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Tania Shah İbrahim qızına verilmiş C-007741 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 22 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Quliyev Anar Rafik oğluna verilmiş A-032664 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 300 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Bağırzadə Sübhan Camal oğluna verilmiş B-594136 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 42 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Məlikova (Babayeva) Məlahət Gülağa qızına verilmiş A-204553 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 19 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Şükürov Elgiz Kamil oğluna verilmiş B-171659 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2009-cu ildə Zeynalova Nurlanə Sahib qızına verilmiş B-163433 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 297 nömrəli tam orta məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Mahmudov Sahib Zahid oğluna verilmiş C-024786 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** İsmayılbəyli kənd tam orta məktəbin VIII sinfini 1986-cı ildə bitirmiş Məmmədova Lalə Əyyub qızına verilmiş 064516 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Nemətabad kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş İlyasov Məqsəd Telman oğluna verilmiş A-480017 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 83 nömrəli məktəb-liseyi 2010-cu ildə bitirmiş Rəhmanov Tərlan Bəhmən oğluna verilmiş B-672326 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 179 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Əmrahov Ayaz Aydın oğluna verilmiş A-314315 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2008-ci ildə Gülverdiyev Rahil Gülverdi oğluna verilmiş BB-I-010056 nömrəli diplom və 2009-cu ildə verilmiş 0504 nömrəli internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** 5 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Mustafayeva Gülüstan Niftalı qızına verilmiş B-325981 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 254 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Rəsulova Günel Fərrux qızına verilmiş A-438295 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2012-ci ildə Səmədova Nərgiz Faiq qızına verilmiş B-255035 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 274 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Ramazanova İlahə İlham qızına verilmiş A-345606 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Əziz Əliyev adına Sumqayıt Tibb Məktəbi** tərəfindən 2002-ci ildə Əliyeva Səbinə Ədalət qızına verilmiş AB-II-079902 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Sarıcalar kənd tam orta məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Qafurova (Bedzinova) Rasima Umaraliyevnaya verilmiş 319920 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Xəzər rayonu Pirallahı qəsəbə 168 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Behbudova Aytən Vidadi qızına verilmiş E-143558 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 1 nömrəli idman liseyi PHŞ-in (277 nömrəli idman təmayüllü tam orta məktəb) 2008-ci ildə bitirmiş Babayev İmran Arif oğluna verilmiş A-696688 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2014-cü ildə Bayramov Orxan Tərixan oğluna verilmiş B-271097 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Aşağı Nüvədi qəsəbə tam orta məktəbi 2007-ci ildə bitirmiş Rəsulova Səma Meybulla qızına verilmiş B-444889 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 4 nömrəli Humanitar Təmayüllü məktəb-liseyi 2014-cü ildə bitirmiş Əsgərova (Əliyarova) Nurlana Ramiz qızına verilmiş A-357399 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Texniki Kolleci** tərəfindən 2014-cü ildə Xəlilzadə Kamal Arif oğluna verilmiş AA-047641 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 244 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Yadullayev Kamran Vurğun oğluna verilmiş E-562010 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 157 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Qüdrətova İlahə Xanlar qızına verilmiş B-315693 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 23 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş İrzayev Əziz Anar ( Əzizov Əziz Anar) oğluna verilmiş A-417748 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 146 nömrəli tam orta məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Qasımova Ləman Qasım qızına verilmiş C-711228 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Hirkan qəsəbə tam orta məktəbi 2014-cü ildə bitirmiş Səmədzadə İbrahim Rauf oğluna verilmiş A-356794 nömrəli tam orta təhsi haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan şəhər** Təbiət və Humanitar fənlər Təmayüllü Liseyi 2018-ci ildə bitirmiş Məstəliyeva Ülkər Mayıl qızına verilmiş E-162633 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2008-ci ildə İbrahimova Samirə Elxan qızına verilmiş B-138056 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 271 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Kazımov Murad Rasim oğluna verilmiş A-101168 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb məktəbi** tərəfindən 2003-cü ildə Əliyev Tural Hüsü oğluna verilmiş AB-II-104816 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Ocaqlı kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Zeynalova (Fərziyeva) Nazimə Qubad qızına verilmiş 074060 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 149 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Haşımov Kamil Qalib oğluna verilmiş E-198377 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Şiştəpə kənd tam orta məktəbi 1983-cü ildə bitirmiş İbrahimova (Allahverdiyeva) Sədaqət Vəli qızına verilmiş AЗ-II-538633 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Beyləqan şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Rzayeva Mehparə Fərrux qızına verilmiş B-044894 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ucar şəhər** 2 nömrəli tam orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Məmmədova (Bayramova) Tamara Oktay qızına verilmiş 104451 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar şəhər** 2 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Həsənova Reyhanə Ağarəhim qızına verilmiş 464916 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Astanlı kənd tam orta məktəbi 2023-cü ildə bitirmiş Əliyev Camal İlqar oğluna verilmiş E-636931 nömrəli tam ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 283 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Bağırova Könül Aydın qızına verilmiş A-441565 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci** tərəfindən 2013-cü ildə Nəcəfov Bürhan Zakir oğluna verilmiş AA-036612 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 5 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Baxşəliyev Əbülfət Ramiz oğluna verilmiş A-235465 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Qaracəmirli kənd tam orta məktəbi 2021-ci ildə bitirmiş Kamilov Əli Elmir oğluna verilmiş E-426739 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 59 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Orucova Zyuleyxa Said-Emi qızına verilmiş A-090944 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 139 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Süleymanov Şahin Fərrux oğluna verilmiş A-614058 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır

**Gəncə Dövlət Regional Kolleci** tərəfindən 2018-ci ildə Əliyev Ramal Kamal oğluna verilmiş AA-110655 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriya nəzdində Musiqi Kolleci** tərəfindən 2000-ci ildə Tupçiyeva Nərminə Viktorovnaya verilmiş AB-II-057956 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Elm və Təhsil Nazirliyinin kollektivi Nazirliyin Maliyyə şöbəsinin əməkdaşı Ramil Orucova anası

**GÖYÇƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sifai Səfərova, Valeh Mirzə və Əlirza Balayev Xəzər Universitetinin prorektoru İsaxan İsaxanlıya anası

**GÜLƏNDAM İSAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.